# Şəhadətin Əzizbəyi

İbrahim Zeynallı

*Bu kitabı Antiterror əməliyyatı zamanı şəhid olmuş xalamoğlu Muradov Əzizbəy Etibar oğlunun əziz xatirəsinə həsr edirəm.*

# Mündəricat

Uşaqlıq illəri ........ 4
Qarmonla tanışlıq ........ 7
Əsgərlik ........ 10
Kollecə qəbul ........ 14
Könüllü kimi qeydiyyat ........ 18
Müharibənin başlaması ........ 20
Cəbrayıl və Qubadlı uğrunda döyüşlər ........ 23
Valid Ağazadənin döyüş xatirələri ........ 25
"Qarabağ şikəstəsi" ........ 38
Şuşanın azad olunması ........ 40
"İncə bellim", "Ben yoruldum hayat" ........ 43
Evə qayıdış ........ 47
Kollecə qayıdış ........ 51
Sıra Baxışı ........ 58
Polis məktəbi ........ 61
Antiterror əməliyyatı ........ 66
Şəhadət ........ 73
Şeirlər ........ 79

# Uşaqlıq illəri

*Bir şam digərini yandırmaqla*
*işığından bir şey itirməz.*

*Mövlanə Cəlaləddin Rumi*

1998-ci ilin soyuq qış fəsli idi. Müharibədən yenicə çıxmış Azərbaycan yenidən dirçəlməkdə idi. Paytaxt Bakı sürətlə böyüyür, Azərbaycan yavaş-yavaş Cənubi Qafqazın ən güclü dövlətinə çevrilirdi. Xalq təqvimi ilə Böyük Çillə artıq bitmişdi. Fevral ayı özü ilə birgə yenicə daxil olan Kiçik Çillənin soyuğunuda gətirməkdə idi. Kür çayının qırağında yerləşən Sabirabad rayonun Ulacalı kəndində günəş gah buludların arxasından çıxaraq ətraf aləmə işıq saçır, gah da buludların arxasında gizlənərək ətraf aləmi öz işığından məhrum edirdi. Mil-Muğan düzü boyu kəndlərin yaxınlığından hay-haray salaraq axan dəli Kürün uzaqdan gələn şırıltısı bəzən kənd camaatı üçün layla çalır, bəzən də insanların yuxusuna haram qatırdı.

Qışın kəsici soyuğu insanları zahiri cəhətdən dondurduğu bir dövrdə, daha dəqiq desək fevralın 3-ündə Birinci Qarabağ müharibəsində iştirak etmiş Etibar Muradovun ailəsindən gələn xoş bir xəbər insanların daxilində ürəkoxşayan hisslərin verdiyi xoş abu-hava ilə ürəkləri isitməkdə idi. Bəli. Doğru bildiniz. Bu xəbər

Muradovlar ailəsinin kiçik oğlu Əzizbəy Muradovun dünyaya gəlməsi xəbəri idi.

Bu kiçik oğlanın dünyaya gəlməsi Azərbaycanın o dövrdə yaşadığı çətinliklərə baxmayaraq həyatın davam etdiyini və çətinliklərlə dolu bir dövrdə gələcəyə doğru yeni ümidlərin, sevincin və xoşbəxtliyin təcəssümü olmuşdu.

Etibar bəy onu sevgi dolu baxışlarla qucağına alıb, - Böyüyüb, vətəninə, millətinə layiq bir övlad olacaq bu uşaq - dedi. O, bütün varlığıyla istəyirdi ki, övladları Xanoğlan, Ehtiram və Əzizbəy gələcəkdə vətəninə və xalqına bağlı vətənpərvər gənclər olsunlar. Onları bu ruhda tərbiyə edir, hər addımında bu dəyərləri aşılamağa çalışırdı. Etibar bəyin vətəninə və xalqına olan məhəbbəti o qədər dərin idi ki, onu bu yoldan heç nə və heç kim döndərə bilməzdi. Onun bu mərdliyi və vətənpərvərliyi ailəsindən ona qalan bir miras idi.

Əzizbəy uşaqlıq illərini Ulacalı kəndinin səfalı təbiətinin qoynunda keçirmişdi. Kür çayının kənarında dostları ilə oynadığı oyunlar, məktəb həyatı, ailəsinin sevgisi və dəstəyi onun xarakterinin formalaşmasında mühüm rol oynamışdır. Atası Etibar bəy və anası Fatma xanım oğullarının təhsili üçün əllərindən gələn hər şeyi edirdilər.

2004-cü ildə Sabirabad rayon Böyükağa Ağayev adına Ulacalı kənd tam orta məktəbində təhsil həyatına başlayan Əzizbəy dərsə olan marağı və həvəsi ilə tezliklə digər şagirdlərdən seçilməyə başlayır.

# Qarmonla tanışlıq

*Musiqi can verir ruha əzəldən,*
*Musiqi qəlb alır min bir gözəldən.*

*Səməd Vurğun*

2009-cu ilin yay fəsli idi. O dövrdə mənim həyatımda musiqi xüsusi bir yer tuturdu. Qarmona yeni başlamışdım və bu alətin səsləri mənə dünyanın bütün qapılarını açırmış kimi gəlirdi. Hər dəfə qarmonun ağ-qara dillərinə toxunduqca, sanki qəlbimin dərinliklərindəki hissləri musiqiyə çevirirdim. Musiqi mənim üçün bir sığınacaq, içimdəki bütün duyğuları ifadə etməyin ən saf yolu idi. Günlərim qarmona gedərək keçir, hər bir notun, hər bir melodiyanın arxasında gizlənən mənanı anlamağa çalışırdım.

Bir gün yay tətilində xalamoğlu Əzizbəy bizə qonaq gəldi. Hələ çox gənc idi, həyatın nə olduğunu öyrənməyə çalışan maraqlı bir uşaq idi. Bizim evdə həmişəki kimi bir sakitlik vardı, amma qarmonun otaqdakı mövcudluğu hər şeyi dəyişirdi. Mən hər zaman olduğu kimi qarmonu götürüb evdə məşq edirdim. Qarmonu əlimə aldıqca, sanki başqa bir dünyaya səyahət edirdim. Notlar bir-birinə qarışır, hər dəfə fərqli bir hekayə danışırdılar.

Əzizbəy evimizə gələn kimi diqqətini bu möcüzəli alətə yönəltdi. Onun gözlərində parlayan maraq qəlbində yeni bir arzunun yaranmasının işarəsi idi.

Əzizbəy qarmona yaxınlaşaraq aləti diqqətlə incələməyə başladı. Mən onun bu marağını gördükcə, qəlbimdə bir həyəcan yarandı. Əzizbəyin musiqiyə bu qədər maraq göstərməsi məni sevindirdi. O, qarmonun səsləri ilə dolu olan otaqda dayanıb, bu alətin sirrini açmağa çalışırmış kimi görünürdü. Mən ona qarmonun nə qədər gözəl bir alət olduğunu, onun necə sehirli səslər yarada biləcəyini izah etməyə başladım. Gözləri ilə alətin hər bir detalını öyrənməyə çalışan Əzizbəy "mən də cəhd edə bilərəm?" – deyə ehtiyatla məndən soruşdu. Onun bu istəyi məni heyrətləndirdi. Mən qarmonu onun əlinə uzatdım və o, ehtiyatla aləti əllərinə aldı. İlk dəfə əlinə almasına baxmayaraq, Əzizbəy sanki bu aləti çoxdan tanıyırmış kimi davrandı. İlk notu çaldığı an onun içində bir alov yandı. Əzizbəyin gözlərindəki parıltı sanki bu anın gələcəkdə onun həyatını dəyişdirəcəyini hiss etdirdi.

Bu qarşılaşma Əzizbəyin həyatında dönüş nöqtəsi oldu. O gün o, qarmonu o qədər sevdi ki, musiqiçi olmağa qərar verdi. Bu alətin ecazkar səsi onun qəlbindəki arzuları oyatdı. Beləliklə, qarmon artıq onun gələcək həyatının melodiyasını yazmağa başlamışdı.

Bu tətildən sonra Əzizbəy 2009-cu ildə orta məktəblə paralel olaraq Sabirabad rayon Üzeyir

Hacıbəyov adına Uşaq Musiqi Məktəbində qarmon ixtisası üzrə də təhsil almağa başlayır. Bu hadisə onun həyatındakı həlledici anlardan biri olur. Burada təhsil aldığı müddətdə o, musiqinin sadəcə bir səslər toplusu deyil, insan ruhunun dərinliyinə nüfuz edən bir sənət olduğunu anlayır.

Musiqi məktəbindəki dərsləri həyatının ayrılmaz bir hissəsinə çevrilən Əzizbəy günlərini məktəb dərsləri və musiqi məşqləri arasında bölürdü. Onun musiqiyə olan həvəsi və bacarığı müəllimlərini heyran edirdi. Tezliklə, o, əzmkarlığının və zəhmətinin bəhrəsi nəticəsində məktəbin ən parlaq şagirdlərindən birinə çevrilir.

Yerli tədbirlərdə çıxış etməyə başlayandan sonra Əzizbəyin musiqi istedadı, daha geniş ictimaiyyət tərəfindən tanınmağa başlanır. O, musiqi tədbirlərində iştirak edir, təcrübəli musiqiçilərlə birgə konsertlərdə səhnəyə çıxırdı. Bu onun musiqi təhsili və şəxsi inkişafı üçün böyük bir təkan olur.

Əzizbəy 2014-cü ildə musiqi məktəbini müvəffəqiyyətlə başa vuran zaman gələcək həyatına dair böyük ümidlər bəsləyirdi. Musiqi artıq onun üçün sadəcə bir maraq sahəsi deyil, həm də həyatının ayrılmaz bir hissəsi olmuşdu.

# Əsgərlik

*Vətən mənə oğul desə nə dərdim,*
*Mamır olub qayasında bitərdim.*

*Məmməd Araz*

Əzizbəy 2015-ci ildə Sabirabad rayon Böyükağa Ağayev adına Ulacalı kənd tam orta məktəbini bitirərək məzun olur. O, 2016-cı ildə 18 yaşına çatanda hər bir Azərbaycan gənci kimi vətən borcunu ödəmək üçün həqiqi hərbi xidmətə yollanır. Naxçıvan onun xidmət edəcəyi yer olaraq təyin olunur. Tarixi və mədəni zənginliyi ilə seçilən bu qədim diyar eyni zamanda uca dağları və sərt iqlimi ilə də məşhur idi. Əzizbəy üçün bu həyatda yeni bir mərhələ, fərqli bir təcrübə idi.

Naxçıvana gəldiyi ilk günlər hər bir gənc əsgər kimi onun üçün də çətin keçirdi. Başı qarlı dağların əzəməti və bölgənin sərt iqlimi yeni əsgərin öyrəşməli olduğu ilk şeylərdən biri idi. Amma Əzizbəy bu yeni həyata qısa zaman ərzində uyğunlaşmağı bacarmışdı. O, əsgər yoldaşları ilə dostluq münasibətləri qurur, komandir və rəislərin verdiyi əmr və göstərişləri vaxtında və dəqiq yerinə yetirir, hərbi nəzakət və davranış qaydalarına riayət edir, eyni zamanda hərb işini vicdanla yerinə yetirirdi. Hər səhər erkən saatlarda başlayan məşqlər, dağlarda keçən təlimlər və hərbi intizam onu

həm fiziki, həm də mənəvi cəhətdən gücləndirirdi. Özünü qısa müddətdə nizam-intizamlı, qorxmaz, cəsur və igid Azərbaycan əsgəri kimi göstərən Əzizbəy vətəpərvərliyi, qayğıkeşliyi ilə yoldaşlarının və komandirlərinin dərin hörmətini qazanır.

Əzizbəyin xidmət etdiyi bölmə Naxçıvanın Ermənistanla sərhəd bölgələrində yerləşirdi. Onların əsas vəzifəsi, ölkənin təhlükəsizliyini təmin etmək və sərhədləri qorumaq idi. Bu böyük bir məsuliyyət idi və Əzizbəy bu məsuliyyəti dərk edərək xidmətini davam etdirirdi. Allah ona pəhləvanlara xas boy-buxun verdiyi kimi, elə bir bərk can da bəxş etmişdi ki, dağların arasında yerləşən səngərlərdə buz baltası kimi möhkəm qalaraq gecə-gündüz vətənin keşiyini çəkirdi. Dağ kimi geniş kürəkləri, dimdik və əzəmətli duruşu, qılınc kimi iti baxışları düşmənin ruhunu titrədirdi. Onun bədəni elə bil dağların qatı qayalarından yoğrulmuşdu. Soyuq küləklər onun dərisini sızlatmaq bir yana, əksinə, sanki onu daha da sərtləşdirirdi. Allahın ona bəxş etdiyi bu qüdrət onu təkcə düşmənə qarşı mübarizədə deyil, həyatın ən sərt sınaqlarında da sarsılmaz, dimdik saxlayırdı.

Gecənin sakitliyinə yavaş-yavaş bürünən nəhəng dağlar, sanki matəm libasını geyinirdi. Onlar sükutun ağırlığı altında əyilir, qaranlıq siluetləri ilə ürkək-ürkək baxan ulduzların parıltısını ört-basdır edirdi. Sanki dağlar öz möhtəşəmliyi ilə gecəyə hökmranlıq edir, ulduzların

cəsarətini qıraraq onları gizlənməyə məcbur edirdi. Əzizbəy həmin bu gecələrdə səngərlərdə keçirdiyi vaxt ərzində, musiqi haqqında çox düşünürdü. Əzəmətli dağların vahiməedici səssizliyi ona musiqinin müəmmalı dünyasının sükunətini xatırladırdı.

Əzizbəyin xidmət etdiyi ərazidə bəzən sərhəd pozuntuları baş verirdi. Bu hallar, əsgərləri daim ayıq-sayıq olmağa məcbur edirdi. Bir gün Əzizbəy və yoldaşları sərhədin bir hissəsində qeyri-adi hərəkətlilik müşahidə edirlər. Ermənilər tərəfindən sərhəd pozulmuşdu. Komandirlərinin göstərişi ilə Əzizbəy və yoldaşları cəsarətlə hərəkət edərək azğın düşmənin məhvi üçün bütün imkanlardan məharətlə istifadə edərək düşməni cavab atəşi ilə susdururlar. Bu hadisə Əzizbəy üçün əlamətdar bir hadisə olur. Çünki o, ilk dəfə idi ki, düşmənlə üz-üzə gəlirdi. Beləliklə, düşmən təxribatını dəf edən Əzizbəy hərbi xidmətin ciddiliyini və məsuliyyətini bu hadisədən sonra daha dərindən dərk edir.

Əzizbəyin Naxçıvanda keçirdiyi əsgərlik müddəti onun həyatının ən əhəmiyyətli dövrlərindən biri olmuşdu. O, burada dostluğun və qardaşlığın əsl mənasını öyrənmiş, vətənə şərəflə xidmət etməyin nə demək olduğunu anlamışdı. Əsgər yoldaşları ilə keçirdiyi vaxt onun üçün unudulmaz xatirələrlə dolu idi. Burada

hər kəs bir-birinə dayaq olur, çətin anlarda birlikdə güc tapırdılar.

Əzizbəy Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində hərbi xidmətini başa vurur. Təxris olan zaman dostları ilə vidalaşarkən, onlara bir daha görüşəcəklərinə əmin olduğunu deyir. Hər biri öz həyat yollarında irəliləyərək bu dostluğu və birlikdə keçirdikləri dəyərli anları xatırlayacaqlarına söz verirlər. Onların dostluğu Naxçıvanın uca dağları kimi möhkəm və əzəmətli idi.

# Kollecə qəbul

*Musiqinin ritmində bir sirr gizlidir; əgər onu ifşa etsəydim dünya alt-üst olardı.*

*Şəms Təbrizi*

Hərbi xidmətini başa vurduqdan sonra geri qayıdan Əzizbəyin həyatında yeni bir mərhələ başlayır. O, həyatını musiqiyə həsr edərək musiqi təhsilini davam etdirmək qərarına gəlir. Çünki onun ən böyük arzusu peşəkar musiqiçi olmaq və Azərbaycan musiqisini beynəlxalq səviyyədə tanıtmaq idi. Bunun üçün o, Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinə yəni Asəf Zeynallı adına Musiqi Kollecinə qəbul olmaq üçün hazırlıqlara başlayır. Onun bu əzmi qarşısında ailəsi və müəllimləri onunla qürur duyur və onun uğur qazanacağına daim inanırdılar. Bu işində öhdəsindən layiqincə gələn Əzizbəy 2018-ci ildə Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinin Xalq çalğı alətləri ifaçılığına (qarmon) qəbul olur. Onun üçün bu yeni yolun başlanğıcı idi.

Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinə qəbul olmaq, Əzizbəyin musiqi arzularının həyata keçməsi üçün bir addım idi. Burada o, peşəkar müəllimlərdən dərs alaraq qarmon ifasında öz bacarıqlarını daha da təkmilləşdirməyə başlayır.

Kollecdəki ilk günlərində Əzizbəy Toğrul Qasımov, Əziz Mikayılov, Fərid Yusifzadə kimi gənclərlə tanış olur. Onlarla tanışlığı qısa zaman ərzində möhkəm və sarsılmaz bir dostluğa çevrilir. Onların hər biri üçün musiqi sadəcə bir hobbi deyil, həyatlarının ayrılmaz bir parçası idi.

Əzizbəy kollecdə müxtəlif musiqi janrları və ifa texnikaları ilə tanış olaraq öz ifa tərzini daha da inkişaf etdirir. Musiqi ilə dolu olan bu məkanda keçirdiyi hər gün, öyrəndiyi hər bir yeni əsər onun üçün yeni bir kəşf və yeni bir öyrənmə imkanı idi. Beləliklə, burada təhsil aldığı dövr ərzində onun musiqi təcrübəsi zənginləşir və ifasının dərinliyini daha da artır.

2019-cu ilin yayında Əziz Mikayılov üçün hərbi xidmətə yollanmaq vaxtı gəlib çatmışdı. O, hərbi xidmət haqqında daha çox məlumat əldə etmək üçün daha əvvəl hərbi xidmətdə olmuş yaxın dostu Əzizbəyə müraciət edir. Bir gün Əziz və Əzizbəy oturub bu məsələ barədə uzun-uzadı danışırlar. Əzizbəy hərbi xidmətdə yaşadığı təcrübələrindən, qarşılaşdığı çətinliklərdən və bu çətinlikləri necə aşdığı barədə onunla ətraflı söhbət edərək ona bir çox dəyərli tövsiyələr verir. Əzizbəy ona tövsiyələrini verərkən səsindəki ciddilik və gözlərindəki müdriklik Əzizi dərindən təsirləndirirdi. Hərbi xidmət haqqında verdiyi tövsiyələrin hər kəlməsində Əziz odu-suyu görmüş birinin təcrübəsini hiss edirdi. Bu

Əzizbəyin yalnız musiqidə deyil, həyatda da nə qədər dəyərli və güvənilən bir dost olduğunu göstərirdi.

Əziz hərbi xidmətə getmədən öncə iyunun 25-də doğma kəndində yəni Sabirabad rayonunun Qaratuğay kəndində bir vida yığıncağı təşkil edir. Onun üçün bu gün həm kədərli, həm də xüsusi idi. Çünki yaxınlarını geridə qoyaraq yeni bir mərhələyə addım atırdı. O, bu yığıncağa Əzizbəyi də dəvət edir. Belə bir gündə dostunun yanında olmaq üçün Əzizbəy, məclisdə qarmon çalmağı öz üzərinə götürür və "sənin məclisində qarmon çalmaq mənlikdi" deyir.

İyunun 25-i gəlib çatır. Kəndin həyətyanı sahəsində böyük bir palatka qurulur. Günəş yavaş-yavaş üfüqdən enir və məclis başlamağa hazırlaşırdı. Əzizbəy qarmonunu götürüb palatkaya daxil olur. Onu nağarada Əziz Mikayılovun əmisioğlu Rüfət, sintezatorda isə Qaratuğay kəndinin sevimli musiqiçisi Seymur müşayiət edirdi. Onların birlikdə ifası məclisdə olan hər kəsi heyran edirdi. Əzizbəy qarmonunun dillərinə toxunduqca sanki bütün kainat onun musiqisinə qulaq asırdı. Əzizbəyin canla-başla ifası məclisin ruhunu canlandırır, melodiyalar kəndin daşlı yollarını, köhnə evlərini, ucsuz-bucaqsız tarlalarını bürüyən bir dalğa kimi yayılırdı. Hər kəs bu musiqinin verdiyi enerjini hiss edir, heç kim Əzizbəyin ifasının bu qədər təsirli olacağını gözləmirdi. Bu onun dostu Əziz Mikayılova etdiyi bir hədiyyə idi.

Əziz Mikayılov üçün həmin gün heç vaxt unudulmayacaq bir xatirəyə çevrilmişdi. Məclis bitəndə Əziz Mikayılov Əzizbəyə yaxınlaşdı və onun əlini sıxaraq sakit və səmimi bir tonda: "Əzizbəy, sənin bu gün ifa etdiyin musiqi mənim üçün unudulmaz oldu. Sən təkcə musiqi çalmadın, sən bu məclisə ruh verdin, onu canlandırdın. Sənin sayəndə bu gün heç vaxt yaddaşımdan silinməyəcək. Kədər ayaq tozun, sevinc baş tacın olsun. Sağ ol, qardaşım" dedi. Əzizbəy başını yüngülcə əydi, amma onun gözlərində parlayan işıq bu sözlərin onun üçün nə qədər əhəmiyyətli olduğunu göstərirdi.

Əzizbəy gəncliyinin ən gözəl illəri olan tələbəlik illərində şəxsi ləzzət arxasınca qaçmırdı. Onun üçün "ləzzət" sözünün dərin və fərqli bir mənası vardı. O, kimisə sevindirdiyi zaman, öz daxilində daha böyük bir ləzzət hiss edirdi. Həzrət Əlinin gözəl bir hədisində deyildiyi kimi: "Aşağı səviyyəli insanlar yeməkdən ləzzət alırlar, uca insanlar isə yedirtməkdən." Əzizbəy də məhz bu yüksək səviyyənin insanı idi. Əlinə pul düşən kimi, onu öz xeyrinə xərcləmək əvəzinə, başqalarına kömək etməyə tələsirdi. Özü ən azla kifayətlənirdi, amma digərlərinə bacardığı qədər çox yardım edirdi. Onun üçün həqiqi ləzzət, başqalarının üzündəki sevincdə, onların rifahında gizlənirdi.

# Könüllü kimi qeydiyyat

Sən yanmasan, mən yanmasam, biz yanmasaq,
Necə çıxar qaranlıqlar aydınlığa?

Nazim Hikmət

Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinin III kursunda oxuyarkən Əzizbəyin həyatında gözlənilməz bir dönüş nöqtəsi baş verir — Qarabağ münaqişəsi yenidən alovlanır.

Əzizbəy, həmişə Qarabağ haqqında xəbərləri yaxından izləyirdi. O, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda gedən mübarizənin bir parçası olmaq istəyirdi.

Bir gün televiziyada Ali Baş komandan İlham Əliyevin Azərbaycanın işğal altında olan torpaqlarını azad etmək üçün geniş miqyaslı bir əməliyyatın başlamasının vacibliyini vurğulamasını eşidəndə, Əzizbəyin qəlbi çırpınmağa başlayır. O, dərhal qərarını verir — cəbhəyə gedib vətəni müdafiə etmək üçün könüllü olaraq orduya qoşulacaqdı. Əslində bu qərar onun üçün asan olmadı. Lakin o, musiqi təhsili və gələcək planları ilə bağlı olduğu qədər vətəninə qarşı məsuliyyət hissi də daşıyırdı. Bu çağırış onun üçün vətən qarşısında vəzifə borcu idi.

Musiqi təhsilini yarımçıq qoymağı qərarlaşdıran Əzizbəy könüllü kimi cəbhəyə getmək üçün qeydiyyatdan keçir. Onun hərbi xidmət təcrübəsi və fiziki hazırlığı ön cəbhədə döyüşçü kimi xidmət etməsinə imkan verirdi. Əzizbəyin könüllü kimi qoşulması onun vətənpərvərlik duyğusunun dərinliyini göstərirdi. Ailəsi, kollecdəki müəllimləri və dostları onun bu qərarını dəstəkləyərək ona uğurlar arzulayırlar. Amma eyni zamanda onlar Əzizbəyin təhlükəsizliyindən də nigaran qalırlar.

# Müharibənin başlaması

*Həyatı və azadlığı üçün ölümü gözə alan bir xalqı məğlub etmək olmaz!*

*Mustafa Kamal Atatürk*

27 sentyabr 2020-ci il. Səhərin erkən saatları idi, hava hələ də zülmət qaralıq içindəydi. Günəşin yeni doğduğu o səhər insanların adi həyatlarına davam etdiyi bir zaman idi. Lakin cəbhədə vəziyyət fərqli idi. Səhərin sükutunu Ermənistan Silahlı Qüvvələrinin cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından atəşə tutması nəticəsində pozulur. Düşmən hücumu Azərbaycan ordusunun mövqelərini ələ keçirmək üçün güclü və sürətli idi. Ətrafda uçuşan güllələrin torpağa və səngər divarlarına dəyməsi ilə toz-torpaq havaya qalxırdı.

Düşmənə layiqli cavab verən Azərbaycan ordusu günorta saatlarına yaxın əks hücuma keçir. Qarabağda yenidən müharibə başlayır. Bu Azərbaycanın bir daha öz torpaqlarını azad etmək üçün başladığı mübarizənin səsi idi. Azərbaycan ordusunun siravi bir əsgəri kimi cəbhəyə könüllü yollanan Əzizbəy üçün bu müharibə sadəcə torpaq uğrunda deyil, həm də ədalət uğrunda bir döyüş idi. Həm gənc əsgərlər, həm təcrübəli döyüşçülər, həm də

vətənini qorumaq üçün buraya gəlmiş könüllülər... Hər birinin gözündə eyni məqsəd var idi — vətən torpaqlarının azadlığı. Əzizbəy üçün bu müharibə bir daha vətəninin sərhədlərini qorumaq və insanların təhlükəsizliyini təmin etmək üçün bir vəzifə idi.

Cəbhə xəttinə çatanda Əzizbəy müharibənin sərt reallıqları ilə üzləşir. Döyüş bölgəsindəki ilk təəssüratlarını ömür boyu unuda bilməyən Əzizbəy burada həyatın incə sərhədlərini bir daha hiss edir. Çoxlarının gözlədiyindən fərqli olaraq döyüşlər ağır və qəddar idi. Hər yeni gün özü ilə birgə atəş səsləri, partlayışlar, itkilər və qələbələr gətirirdi. Əsgərlər daima həyəcan və gərginlik içində idilər. Çünki hər an yeni bir döyüş başlaya bilərdi. Əzizbəy də digər əsgərlər kimi bu dəhşətlərin ortasında yaşamaq və döyüşmək məcburiyyətində idi. O, yoldaşlarının yanında durur, onların təhlükəsizliyini təmin etməyə çalışırdı. Döyüş meydanında yaşanan bu anlar onun üçün həm bir imtahan, həm də vətənə olan sevginin bir ifadəsi idi.

Cəbhədə Əzizbəyin ən böyük dayanağı yoldaşları ilə olan sıx dostluq münasibətləri və aralarında olan birlik idi. Hər bir əsgər digərinin dəstəyinə güvənirdi. Gündəlik həyatın çətinlikləri və döyüşlərin gərginliyi onları daha da yaxınlaşdırdı. Onlar bir-birlərini qorumaq və dəstəkləmək üçün əllərindən gələni edirdilər. Əzizbəy bu dostluğun və birliyin onların sağ qalmasında nə qədər

əhəmiyyətli olduğunu yaxşı başa düşürdü. Cəbhədəki dostluqlar onun həyatında əbədi iz buraxır və tədricən bu dostluqlar döyüş meydanında doğulan və sınanan qardaşlığa çevrilirdi.

# Cəbrayıl və Qubadlı uğrunda döyüşlər

*Bayraqları bayraq yapan üstündəki qandır,*
*Topraq, əgər uğrunda ölən varsa vətəndir!*

*Midhat Cemal Kuntay*

Əzizbəy və döyüş yoldaşları Cəbrayılı azad etmək üçün hücuma keçirlər. Cəbrayılın azad edilməsi ətraf ərazilərin təhlükəsizliyi üçün vacib idi. Əzizbəyin ilk böyük savaş təcrübəsi olan bu döyüş onun həyatının ən böyük sınağı olur. Döyüş başlayan zaman silah səsləri və partlayışlar ətrafı bürüyür. Qəlbində qorxu və həyəcan hissləri qarışsa da o, qətiyyətlə döyüşə qoşulur. Düşmən qüvvələri onların bu hücumunun qarşısını almaq üçün bir neçə dəfə əks hücuma keçməyə cəhd edirlər. Əzizbəy bu döyüşlərdə döyüş yoldaşlarının həyatını qorumaq üçün bir neçə dəfə təhlükə ilə üzləşir. Onlar müharibənin gətirdiyi qorxu və stressə baxmayaraq, düşməni geri çəkilməyə məcbur edirlər. Əzizbəy burada öz cəsarətini və bacarığını nümayiş etdirərək döyüş yoldaşlarının hörmətini qazanmağı bacarır.

Oktyabrın 4-ü Cəbrayıl şəhəri erməni qüvvələrindən tamamilə təmizlənərək azad edilir. Əzizbəy və döyüş yoldaşları Qarabağın bu dilbər guşəsini azad etdikləri üçün qürur hissi ilə dolu idilər. Onlar həm özlərini, həm də vətənlərini qorumaq üçün

böyük bir sınaqdan keçmişdilər. Əzizbəy həm də anlayırdı ki, müharibə hələ bitməyib. Mənfur düşmən ordusu məğlub edilərək Qarabağdan tamamilə qovulmadığı müddətcə regionda sülh və sabitlik bərqərar ola bilməzdi.

Azərbaycanın dağlıq ərazilərində yerləşən Qubadlı şəhəri həm müharibənin izlərini daşıyan, həm də ümidin səsini hayqıran bir məkan idi. Bu qədim şəhər indi erməni işğalında idi və bu işğalın izləri hər yerdə görünürdü. Evlərin yanıq divarları, yarı boş küçələr bu torpağın çəkdiyi əzabın səssiz şahidləri idi. Müharibə bu sakit bölgəyə kədər və iztirab gətirmişdi. İnsanlar evlərini itirmiş, ailələr parçalanmış və hər bir ürəkdə yara açılmışdı.

Qubadlı istiqamətində hücuma keçən Əzizbəy və döyüş yoldaşlarının əzmkarlığı və cəsarəti düşməni geri çəkilməyə vadar edir. Qubadlının strateji mövqeyi Azərbaycan ordusunun irəliləməsi üçün mühüm əhəmiyyət kəsb edirdi. Gündüzlər ağır döyüşlərdə iştirak edən Əzizbəy gecələr postda vətənin keşiyini çəkirdi. Oktyabrın 25-i Qubadlı şəhərininin yağı düşməndən azad edilməsi Əzizbəy və döyüş yoldaşlarının əzmkarlığı və qələbə arzusu daha da gücləndirdi.

# Valid Ağazadənin döyüş xatirələri

*Bəzən yaşamağa başlamaq üçün, ölmək lazımdır.*

*Paulo Koelyo*

Oktyabr ayının sərt küləyi Qubadlının dağlarını dolaşır, səmada ulduzlar parıldasa da, döyüş səsləri gecənin qaranlığını yara-yara uzanırdı. Oktyabr ayının 20-dən 21-nə keçən gecə, saat 4 radələrində, Azərbaycan Silahlı Qüvvələri Sarıyataq kəndini geri almaq üçün döyüş əməliyyatına başlayırlar. Bu əməliyyatın ön cəbhəsində olan əsgərlərdən biri də Valid Ağazadə idi. Azərbaycan ordusu hücuma keçərək düşmənin mövqelərini aşmağa çalışırdı. Döyüş getdikcə qızışır, güllələrin uğultusu, mərmilərin partlayış səsləri ətrafı bürüyürdü. Valid bu xaosun ortasında öz yerini tapmağa çalışırdı. Birdən səmadan gələn bir vızıltı eşidilir və bir neçə saniyə sonra Validin yanında yerə düşən minaatan mərmisi partlayır. Güclü partlayış onu havaya ataraq yerə çırpır. Validin dünyası bir anlıq tamamilə qaranlığa qərq olur. Qulaqları sanki dərin bir quyunun dibində idi – səslər yoxa çıxmış, hər şey sanki yavaş-yavaş hərəkət edirdi. Başının içində dərin bir uğultu hiss edirdi, sanki zaman dayanmış, rənglər, səslər bir-birinə qarışmış, hər şey bir kabusa çevrilmişdi. O, yerə sərilmiş vəziyyətdə, özünü təslim etməyə hazır idi. Gözləri açıq olsa da hər

şeyi bulanıq görür, qulaqları isə demək olar ki eşitmirdi. Onun ətrafında hərəkət edən kölgələr var idi, lakin o, kimlərin olduğunu ayırd edə bilmirdi. Həyatın incə bir ipliyə bağlı olduğu o anlarda, ətrafında olanların kim olduğunu, hansı vəziyyətdə olduğunu belə bilmirdi. Döyüş meydanında tək başına qalmışdı.

Tam bu an, ölümün bir addım yaxınlığında Validə doğru bir kölgə yaxınlaşır. Tanımadığı bir əsgər onun yanında dayanır. Onun səs-küydən kütləşmiş beyni bu əsgərin kim olduğunu ayırd edə bilmirdi. Valid boğazından gələn zəif bir səs ilə – Məni burada qoy, get – dedi. O, özünü tərk edilmiş hiss edirdi və başqasının həyatını risqə atmaq istəmirdi. Ancaq tanımadığı əsgər dayanır və gözləri ilə Validin gözlərinə baxaraq qətiyyətli səslə –Səni bu cəhənnəmin ortasında qoyub getsəm ömür boyu vicdan əzabı çəkərəm. Səni mütləq buradan sağ-salamat çıxaracam, buna söz verirəm – deyərək cavab verir.

Bu sözlər Validin ürəyindəki qaranlığa işıq saçaraq onu aydınlığa çıxarır. Əsgər onun yaralı bədəninə ilkin tibbi yardım göstərərək yaralarını sürətlə sarıyır və əlləri ilə onu döyüş meydanından çıxarmağa çalışır. Ətrafdakı xaosda bu möcüzə kimi görünürdü. Validin gözləri hələ də bulanıq görürdü, lakin onu xilas etməyə çalışan əsgərin hər addımında Validin ürəyi bu qeyrətli yoldaşına daha çox bağlanırdı. Bu anın gerçəkliklə yuxu arasında

olub-olmadığını anlamayan Valid xilas edildiyini qəbul edərək, dərindən bir nəfəs alır. Həmin ərazidən çıxarıldıqdan bir neçə saat sonra ona həyatın ölümə yaxınlaşdığı o qaranlıq anlardan çıxaran həmin qəhraman əsgərin kim olduğunu söyləyirlər – bu Əzizbəy idi. O an Validin qəlbində Əzizbəyə qarşı böyük bir hörmət və yaxınlıq hissi doğur. Beləliklə, Sarıyataq döyüşünün tozlu xatirələri arasında Əzizbəy və Validin arasında əbədi davam edəcək bir dostluğun əsasını qoyulur. Bu dostluq onların gələcəkdə də birlikdə keçəcəkləri bir çox ağır sınaqların ilk addımı olur.

Qubadlının Sarıyataq kəndi uğrunda gedən döyüşlər şiddətlə davam edirdi. Döyüşlərin hər bir anı qanlı keçir, səmanın gurultusu top və mərmi səsləri ilə əks-səda verirdi. Hər an birinin həyatına son qoyulacaq, hər an biri döyüş yoldaşının yanında şəhadətə ucalacaqdı. Hər addımda ölümə meydan oxuyan əsgərlər bir an belə dayanmadan Vətən torpağını azad etmək üçün irəliləyirdilər.

Valid və Əzizbəy artıq təkcə dost deyil, həm də döyüş yoldaşı olurlar. Ölümlə üz-üzə qaldıqları döyüş meydanlarında onların arasında sarsılmaz bir dostluq bağı yaranır. Bu bağ onları bir-birlərinə daha da yaxınlaşdırır. Hər dəfə atəş, partlayış səsi eşidiləndə Valid və Əzizbəy bir-birinə tərəf baxırdı. Hər ikisi bilirdi

ki, bu döyüşdə bir-birinə güvənməkdən başqa çarələri yoxdur.

Düşmən qüvvələri şiddətlə müqavimət göstərsə də, rəşadətli Azərbaycan ordusunun əsgərləri qətiyyətlə irəliləyirdi. Hücumun ən qızğın anlarından birində, Sarıyataq istiqamətində, ön cəbhədə döyüşən leytenant Mazaqlı ayağından yaralanır. O, ağrı içində yerə yıxılaraq qan içində qalır. Ətrafında döyüş səhnələri davam edərkən, Əzizbəy dərhal vəziyyəti qiymətləndirərək bir neçə yoldaşı ilə birlikdə yaralı leytenanta kömək etmək üçün irəli atılır. Leytenant nə qədər güclü olsa da, yarası ciddi idi və təcili olaraq döyüş bölgəsindən çıxarılmalı idi. Bu asan bir iş deyildi. Onlar hər addımda düşmən atəşindən qorunmalı, özlərini və yaralı zabiti qoruyaraq geri çəkilməli idilər. Əzizbəy bir neçə döyüş yoldaşı ilə birlikdə dərhal zərər görmüş leytenantı arxa cəbhəyə doğru təxliyə etmək üçün yola düşür. Hər tərəfdən atəş altında olan bu yolda hər addım həyatla ölüm arasında ince bir sərhəddə atılırdı. Onlar leytenantı əhatə edərək yarasını mümkün qədər sürətlə sarıyırlar və onu atəşdən qoruyaraq geriyə – arxa cəbhəyə doğru çəkməyə başlayırlar. Əzizbəyin və yoldaşlarının sürətli və cəsur hərəkətləri sayəsində leytenantın həyatı qurtulur.

Zabitin təhlükəsizliyini təmin etdikdən sonra, Əzizbəy heç bir tərəddüd etmədən yoldaşları ilə birlikdə

yenidən döyüş meydanına qayıtmağa hazırlaşır. Onun ürəyi hələ də döyüş meydanında idi. Döyüş yoldaşları hələ də orada mübarizə aparırdılar. Onları qarşıda hələ çox ağır döyüşlər gözləyirdi. Müharibə meydanınaa qayıdan zaman Əzizbəy körpünün altında bir hərəkət görür. Düşmən hələ də burada idi və onların niyyəti bəlli idi. Körpünün altında bir erməni əsgəri gizlənirdi. Əzizbəy bir an belə düşünmədən yoldaşlarına işarə edərək körpünün altına doğru ehtiyatla yaxınlaşır. O, avtomatını erməni əsgərinə doğru tuşlayaraq onu təslim olmağa məcbur edir. Beləliklə o, erməni əsgərini əsir götürür.

Düşməni nəzarət altına aldıqdan sonra, o, əsiri təhvil verib, bir an olsun dayanmadan yenidən döyüş meydanına atılır. Onun gözlərindəki cəsarət və qətiyyət digər döyüş yoldaşlarına da sirayət edirdi.

Azad etdikləri ərazilər Əzizbəy və Validin olduğu bölüyə tapşırılır. Onlar bu torpaqların azadlığı uğrunda döyüşürdülər və indi bu torpaqların müdafiəsində son damla qanlarına qədər döyüşməyə hazır idilər. Hər kəs yorğun idi, amma ürəklərində qalibiyyət eşqi onları ayaqda saxlayırdı.

Sarıyataq kəndi uğrunda gedən qızğın döyüşlərdən sonra, nəhayət kənd tamamilə azad edilir. Əsgərlərin sevinci yerə-göyə sığmırdı. Qələbənin dadı, hər kəsin üzündəki təbəssümdə öz əksini tapırdı. Hər bir uğurlu

əməliyyatdan sonra qısa da olsa dincəlmək, istirahət etmək, vətən torpağında qazanılmış zəfərin dadını çıxarmaq, həmçinin növbəti döyüşə hazırlanmaq vacib idi. Qarşıda hələ çox iş var idi. İndi növbəti hədəf istiqamətləri müəyyənləşdirilməli, mübarizə davam etdirilməli idi.

Valid və Əzizbəy, bölükləri ilə birlikdə Sarıyataqdan ayrılıb, cəmləşmə yeri olan Balasoltanlı kəndi ilə Sarıyataq arasında yerləşən bir əraziyə doğru hərəkət edirlər. Yolda onlar Həkəri çayının sahilində dayanırlar. Ətrafdakı təbiətin sakitliyi, quşların oxumağı, Həkəri çayının şırıltısı onların ürəyindəki döyüş səsinə sükunət gətirirdi. Çayın soyuq suyu yorgun əsgərlərin tozlu, kirli üzlərini yuyarkən sanki onlara yeni bir güc, yeni bir həyat verirdi.

Bir neçə saatlıq istirahətdən sonra əsgərlər Qubadlı rayonunun mərkəzinə doğru hərəkət etməyə başlayırlar. Onların ayaq səsləri azad edilən torpaqlara qələbə nəğmələri kimi yayılırdı. 25 oktyabr 2020-ci ildə Azərbaycan ordusu düşmən qüvvələri geri çəkilməyə məcbur edərək Qubadlı rayonunun mərkəzini azad edir. Əsgərlər burada yenidən istirahət edirlər, amma bilirdilər ki, qarşıda onları daha çətin sınaqlar gözləyir. Valid və Əzizbəyin gözləri ilə bir-birinə baxışlarında, bu döyüşün sonuna qədər bir-birilərini qoruyacaqlarına dair bir sözsüz and vardı. Döyüşçülər burada bir neçə saat

dincəldikdən sonra növbəti əməliyyat üçün təchizatlarını yenidən yükləyərək, Bərgüşad çayının yuxarı hissəsində mövqe tutmaq üçün yola düşürlər.

Bərgüşad çayının sahilinə çatanda onları növbəti hücum əməliyyatlarının istiqamətləri barədə əmr gözləyirdi. Əmrin gəlməsi ilə döyüşçülərdən ibarət olan bölüklər öz mövqelərini tuturlar. Əzizbəy və Validin olduğu bölük hücuma davam edərək Qubadlı rayonunun Əyin kəndi yaxınlığında mövqe tutur. Burada dayanarkən bölüyə növbəti əməliyyat tapşırığı verilir. Onlar Əyin kəndi yaxınlığındakı strateji yüksəklikləri ələ keçirməli idilər. Hazırlanan döyüş planına əsasən üç istiqamətdən hücuma keçmək qərarı verilir: mayor Vüqar Ağayevın rəhbərlik etdiyi bölük sağ cinahdan, Əzizbəy və Validin olduğu bölük isə sol cinahdan hücum edəcəkdi. Mərkəz hissə isə bir az geridən hərəkət edərək onları təminatla təmin edəcəkdi.

Hücumun başlaması ilə mina təmizləmə bölüyü təhlükəsiz keçidlər açmaq üçün öndən irəliləyir. Bunu görən erməni qüvvələri minaatanlarla hücuma keçən Azərbaycan ordusunun mövqelərini bombardman etməyə başlayaraq döyüşçülərin irəliləməsini əngəlləməyə başlayır. Göy üzünü qara buludlar kimi örtən mərmilər, torpağa düşəndə ətrafa ölüm gətirirdi. Bu anda Valid və Əzizbəy, dərhal döyüş yoldaşları ilə birgə

yaxınlıqdakı təpənin yamacında mövqe tutaraq bombardmanın sona çatmasını gözləyirlər.

Partlayışlar bir qədər səngiyəndən sonra, Valid və Əzizbəy qarşılarındakı yarğana diqqət yetirirlər. Yarğan, düşmənin gözündən qaçaraq gizli şəkildə irəliləmək üçün mükəmməl bir yer idi. Onlar yarğanın içi ilə irəliləməyə başlayırlar. Hər addım onların həyatı üçün təhlükəli olsa da, məqsədlərinə çatmaq üçün bu riski gözə almalı idilər.

Düşmənin gözləmədiyi anda, Valid və Əzizbəyin bölüyü yüksəklikdə yerləşən düşmən mövqeyinə hücum edirlər. Ani bir basqında düşməni təəccübləndirərək qısa müddət ərzində yüksəkliyi ələ keçirməyə müvəffəq olurlar. Yüksəklikləri ələ keçirmək onların döyüşdəki uğurlarının bir parçası idi, amma bu uğuru qoruyub saxlamaq və gələcək əməliyyatlar üçün möhkəm bir müdafiə xətti qurmaq daha da vacib idi.

Oktyabr ayının son günləri idi. Gecələr hava elə bürkü olurdu ki, dağlar öz ağırlığını sanki bu gənc döyüşçülərin çiyinlərinə yükləyirdi. Səhərin erkən saatlarında ətraf aləmi bürüyən duman, döyüşün toz-torpağına qarışaraq zirvəni örtürdü. Lakin soyuq havanın təsiri döyüş bölgəsindəki gərginliyi və adrenalinlə dolu atmosferi dondura bilmirdi.

Düşmənin əks hücumundan müdafiə olunmaq üçün Əzizbəy və döyüş yoldaşları ələ keçirilmiş zirvənin sol

tərəfində daşdan pulemyot postu düzəldirlər. Bu mövqe onlara həm taktiki cəhətdən üstünlük verir, həm də düşmənin qarşısında dayanan böyük bir maneəyə çevrilirdi. Döyüş bölgəsində hər şey tez dəyişirdi, ani qərarlar həyati əhəmiyyət daşıyırdı. Ümumilikdə on iki nəfərdən ibarət olan bu kiçik dəstə iki pulemyotla böyük bir sahəni qorumağa çalışırdı. Pulemyotlar düşmənin gözlənilməz hücumlarından qorunmaq üçün ən etibarlı silahlar idi.

Postun sağ tərəfindəki pulemyotun başında Məmmədov İlkin, sol tərəfindəki pulemyotun başında isə Muradov Əzizbəy dayanır. Düşmən əsasən sağ tərəfdən hücum etdiyi üçün əsgərlərin əksəriyyəti o tərəfə cəmlənir. Belə olan halda Əzizbəyin üzərinə böyük bir məsuliyyət düşürdü. O, postun sol tərəfini təkbaşına 45 dərəcəlik bir bucaq altında müdafiə etməli idi. Qanlı döyüşlərdən keçmiş Əzizbəy pulemyotunu daşların arasına bərkidib, gözlərini qarşı tərəfə zilləyərək düşmənin hərəkətlərini müşahidə edirdi. O, sanki ətrafdakı hər daşın, hər yarğanın, hər təpənin hərəkətini görürdü. Dağların yamacına baxanda onun tək olmasına baxmayaraq, bu ərazini nəzarət altında saxlaması adamı heyran edirdi.

Ancaq düşmən sakit dayanmırdı. Düşmənin sağ cinahdan hücum cəhdi gözlənildiyi kimi baş verirdi. Məmmədov İlkin pulemyotu ilə atəş açaraq düşməni geri

çəkilməyə məcbur etməyə çalışarkən ağzından qəlpə yarası alaraq ağır şəkildə yaralanır. İki əsgər onu təcili döyüş meydanından çıxararaq təhlükəsiz bölgəyə doğru təxliyə edir. Ancaq bu sağ cinahın müdafiəsində boşluq yaradır. Hücum getdikcə şiddətlənirdi. Düşmənin top və pulemyot atəşi aramsız şəkildə davam edirdi.

İlkinin yaralandığını görən Valid və digər döyüşçülər də ora doğru qaçaraq sağ tərəfdən sızmasının qarşısını almaq üçün həmin cinahda yer alaraq düşmənin mövqeləri ələ keçirməsinə mane olmağa çalışırlar. Lakin bu vəziyyətdə Əzizbəyin üzərinə böyük bir məsuliyyət düşmüşdü. Artıq təkcə 45 dərəcə bucaq altında deyil, 90 dərəcəlik bir sahəni müdafiə etməli idi. Sol cinah tamamilə ona əmanət edilir. Bu bir insan üçün çətin, bəlkə də mümkünsüz görünə bilərdi, amma Əzizbəy bu məsuliyyəti öz üzərinə götürür. O, düşmənin hər tərpənişini izləyərək atəş açmağa davam edirdi. Getdikcə döyüşün ağırlığı daha da artırdı, lakin o, geri çəkilmək haqqında qətiyyən düşünmürdü. Düşmən qarşısında tək qalsada təslim olmurdu.

Günlərdir davam edən toqquşmalar, əsgərlərin hər addımını daha da çətinləşdirirdi. Əzizbəy tək başına böyük bir sahəni qoruyarkən, həm də düşmənin gözlənilən hücumlarına qarşı mübarizə aparırdı. O, silahının gücü ilə düşməni geri oturdur, öz mövqelərini qorumağa davam edirdi. Əzizbəyin qətiyyəti və

fədakarlığı ilə postun sol tərəfi möhkəm bir qalaya çevrilmişdi.

Döyüşlərin qızğın davam etdiyi bir dövrdə, noyabrın 1-i əsgərlər ölümün və həyatın bir-birinə qarışdığı bu döyüş meydanında ratsiya vasitəsilə acı bir xəbər eşidirlər – onları qələbəyə ruhlandıran və istiqamət verən komandirləri mayor Vüqar Ağayev şəhid olmuşdu. Bu xəbər hamının, eləcə də Əzizbəyin ürəyinə ağır bir zərbə vursa da, onlar emosiyalarını bir kənara qoyub mövqelərini qorumaq üçün son güclərinə qədər döyüşməyə davam edirlər. Hər gün düşmənin müxtəlif istiqamətlərdən gələn hücumlarını dəf edən bu əsgərlər, yüksək iradə və dözüm nümayiş etdirirdilər.

Döyüşlər bir qədər səngiyəndən sonra noyabrın 7-si Əzizbəy və döyüş yoldaşları Bərgüşad çayına doğru hərəkət edirlər. Bərgüşad çayının sahilinə çatanda hər şey çox sakit görünürdü. Günlərlə dağ başında döyüşən, tozun-torpağın içində olan əsgərlər üçün bu çay sanki bir cənnət idi. Bərgüşad çayının soyuq suları əsgərlərin yorgun bədənlərinə təzə güc verirdi. Kimi əl-üzünü yuyur, kimi üzünü qırxır, kimisi isə çimirdi. Hər kəs bu anların verdiyi dincəlməyi tam mənada qiymətləndirmək istəyirdi. Amma Əzizbəyin ürəyində bir narahatlıq vardı. Sanki o, bir azdan olacaqları öncədən hiss edirdi. O, digər döyüşçülər kimi suya girmədi, əksinə silahı əlində çayın sahilinə nəzarət etməyə başladı. Başını sağa-sola

çevirərək ətrafı yoxlayırdı. Gözləri hər an bir təhlükə axtarırdı. Sanki düşmənin hələ də onları izləmiş olduğunu bilirdi.

Birdən düşmən artilleriyası qəfildən Bərgüşad çayını hədəf alaraq bombalamağa başlayır. Suya dəyən mərmilər partlayaraq, iri su dalğaları ilə birlikdə daş-qayaları da havaya sovururdu. Top atışlarının ilk səsi dərhal hər kəsi ayıldır. Əsgərlər çaşqınlıq içində idi. Bir anda hər tərəf xaos içində qalmışdı. Bombardmanın başlaması ilə vəziyyəti dərhal analiz edən Əzizbəy, sanki illərlə hazırladığı bir planı həyata keçirirmiş kimi sürətlə hərəkətə keçir. O, əsgərlərin təlaş içində olduğunu görərək – Əgər burada qalsaq, hamımızı vuracaqlar. Tez burdan çıxamlıyıq! – deyə o, yoldaşlarına ucadan səslənir. Əzizbəyin səs tonunda həm liderlik, həm də qətiyyət vardı. Onun səsi ətrafdakı partlayışların və ölüm qorxusunun içində əsgərlər üçün bir ümid işığı olmuşdu.

Əzizbəy bombardmandan xilas olmaq üçün əsgərlərə yaxınlıqdakı təqribən 4-5 metr hündürlüyü olan kiçik bir təpəni göstərərək – Oraya qaçmalıyıq! – dedi. Onlar dərhal hərəkətə keçərək həmən o təpənin yamacına sığınırlar. Ancaq vəziyyətin təhlükəli olduğunu bilən Əzizbəy, buradan da çıxmalı olduqlarını deyir. O, strateji düşünərək əsgərləri iki-iki qruplaşdırır. Üzünü döyüş yooldaşlarına tərəf tutaraq – Aranızda 10-15 metr məsafə saxlayın, hər qrup ayrı-ayrı çıxacaq – deyə o göstəriş

verir. Çünki əgər hamı birdən çıxmağa çalışsaydı, bir top atışı onların hamısını məhv edə bilərdi. Amma iki-iki çıxmaqla, biri yaralansa, digəri ona kömək edə bilərdi. Əsgərlər onun dediklərinə əməl edərək aralarında 10-15 metr məsafə ilə iki-iki çıxaraq təhlükəsiz zonaya doğru hərəkət edirlər. Əzizbəyin rəhbərliyi altında olan bu manevr onların həyatını xilas edir. O, döyüş yoldaşlarının hamısının təhlükəsiz olduğuna əmin olduqdan sonra, nəhayət özü də arxadan geri çəkilir. Bu Əzizbəyin liderliyinin, soyuqqanlı düşüncəsinin, döyüş təcrübəsinin və yoldaşlarına olan bağlılığının parlaq bir təzahürü idi. Onun qərarları və cəsarəti sayəsində döyüş meydanından yoldaşları xilas olur.

# “Qarabağ şikəstəsi”

*Sözün aciz qaldığı yerdə musiqi*
*öz rəngarəng diliylə peyda olur.*

*Pyotr Çaykovski*

Qubadlıya daxil olan zaman yanan evlərin, boş küçələrin dərin sükunətini görən Əzizbəy burada bir şey etməli olduğunu anlayır. Girdiyi boş evlərdən birində tapdığı qarmonun toz-torpağını təmizləyərək onu sinəsinə doğru yaxınlaşdırır. Bu zaman sanki bütün dünya bir anlıq dayanır və o, bu anda "Qarabağ Şikəstəsi"nin ilk notlarını çalmağa başlayır. Bu musiqi yalnız səsdən ibarət deyildi; o, bir çağırış, bir təsəlli və bir ümid işarəsi idi. Döyüş yoldaşları yavaş-yavaş Əzizbəyin ətrafına toplaşırlar. Onlar bu musiqini dinlədikcə sanki bütün ağrılarını, itkilərini və ümidsizliklərini bir an üçün olsa da unudurlar. Bu əsər, Azərbaycanın qədim musiqi ənənəsinin bir simvolu idi və hər bir notu ilə Qarabağın gözəlliklərini, ağrılarını, sevincini və ümidini ifadə edirdi. O, bu ifa ilə bütün dünyaya Qarabağın hələ də yaşadığını və heç vaxt unudulmayacağını çatdırmaq istəyirdi. "Qarabağ Şikəstəsi" sanki bu qədim torpağın ruhu idi və Əzizbəy bu ruhu dirildirdi. Bu musiqi ifası Əzizbəy üçün yalnız bir başlanğıc idi. O, anladı ki, musiqi ilə insanları bir

araya gətirə, onlara ümid verə bilər. Bu onun müharibə dövründə insanlara çatdırmaq istədiyi mesaj idi — Qəlblərimizdə musiqi olduğu müddətcə, həyat davam edir.

Əzizbəy və döyüş yoldaşları Qubadlıdakı zəfərdən sonra dincəlmək üçün biraz vaxt tapırlar. Onlar bilirdilər ki, qarşıda daha çətin bir missiya var - Şuşanın azad edilməsi.

# Şuşanın azad olunması

Şuşasız Qarabağ, Qarabağsız isə,
ümumiyyətlə, Azərbaycan yoxdur.

Heydər Əliyev

Azərbaycan üçün ən strateji və simvolik şəhərlərdən biri olan Şuşa müharibənin son hədəfi idi. Şuşanın azadlığı yalnız fiziki bir döyüş deyildi. Bu xalqın iradəsinin, mədəniyyətinin və tarixinə olan dərin bağlılığının mübarizəsi idi. Şuşanın azad edilməsi həm tarixi ədalətin bərpası, həm də Azərbaycanın mədəniyyət mərkəzinin geri qaytarılması demək idi.

Şuşa, təbii istehkam kimi, yüksək dağların zirvəsində yerləşirdi və onu müdafiə edən qüvvələr şəhərə girişin asan olmayacağını bilirdilər. Ağır silahlar və tanklarla şəhərə girmək qeyri-mümkün idi, çünki bu, həm böyük itkilərə, həm də qədim şəhərin tarixi mirasının məhv olmasına səbəb ola bilərdi.

Azərbaycan komandanlığı şəhərin zəngin mədəni irsini qorumaq və mümkün dağıntıların qarşısını almaq üçün bombardmanlardan imtina edir. Yalnız bir çıxış yolu qalırdı: əlbəyaxa döyüş. Bu taktika, həm cəsarət, həm də çeviklik tələb edirdi. Əsgərlər yüngül silahlarla

silahlanmışdı, amma onların ən güclü silahı qəlblərindəki vətən sevgisi və azadlıq arzusu idi.

Azərbaycan Xüsusi Təyinatlı Qüvvələri hər biri 100 nəfərdən ibarət olan dörd qrupa bölünmüş 400 nəfərlik heyətlə Şuşaya doğru irəliləyir. Yüngül silah-sursatla təchiz edilmiş bu igidlər, səhər saatlarında şəhərin sıldırımlarına iplərlə dırmaşaraq Şuşaya dörd tərəfdən daxil olurlar. Şəhərin daş küçələrində, qədim divarların kölgəsində dərhal şiddətli döyüşlər başlayır. Erməni silahlıları gözlənilməz bu hücum qarşısında ağır itkilər verirlər. Azərbaycan ordusu cəsarətlə və qətiyyətlə düşməni məğlub edərək günortadan sonra Şuşanı azad edir. Şuşanın azadlığı ilə bu qəhrəmanlar həm də Azərbaycan xalqının qürurunu, milli birliyini və mədəni irsini qoruyurlar. Bu zəfər tarixin şanlı səhifələrinə qızıl hərflərlə yazılır.

Şuşanın azad edilməsi ilə şəhərin qədim divarları arasında Azərbaycanın azadlıq sədası yüksəlir. Şəhərin müdafiəsi Əzizbəy və döyüş yoldaşlarına həvalə olunur. O, əsrlər boyu mədəniyyətin və musiqinin beşiyi olan Şuşaya çatdıqda ürəyi yenidən ifa etmək arzusu ilə dolub-daşırdı. Erməni işğalında əzab çəkmiş bu şəhərin qədim divarları arasında musiqinin sədalarını dirçəltmək onun ən böyük arzularından biri idi.

Döyüşlərin sonu gəldikcə Azərbaycan ordusu Qarabağda mühüm irəliləyişlər əldə edirdi. Əzizbəy və döyüş yoldaşları üçün bu həm bir qələbə, həm də bir itki idi. Çünki onlar həm müharibə boyunca itirilmiş yoldaşlarını xatırlayır, həm də azad edilən torpaqların sevincini yaşayırdılar.

10 noyabr 2020-ci il. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin, Ermənistan Respublikası Baş naziri Nikol Paşinyan və Rusiya Federasiyası Prezidenti Vladimir Putinin imzaladığı birgə bəyanat ilə müharibə Azərbaycanın mütləq qələbəsi ilə nəticələnir.

# “İncə bellim”, “Ben yoruldum hayat”

Bu səs sükuta dalmış göyü də dinləndirir,
Ulduzlar da bu səsin önündə baş endirir.

Bəxtiyar Vahabzadə

Şuşada dalğalanan Azərbaycan bayrağı Əzizbəy üçün döyüşlərin və itkilərin boşuna olmadığını bir daha göstərirdi. Bir vaxtlar cıdır yarışlarının, ədəbi-musiqili məclislərin keçirildiyi Cıdır düzündə postda dayanaraq gecə-gündüz vətənin keşiyini çəkən Əzizbəy hər dəfə postdan qayıdanda yoldaşlarına musiqinin sirli dünyası haqqında danışırdı. Onun sözləri əsgər yoldaşlarının ruhunu yüksəldir, onlara evlərini, ailələrini xatırladırdı.

Bir gün Əzizbəy Şuşanın Sığnaq kəndindəki evlərin birinə daxil olur. O, içəridə köhnə və tozlu bir piano görür. Əlində qara əlcək, əynində hərbi forma ilə o, pianonun qarşısına əyləşərək barmaqları ilə yavaş-yavaş pianonun ağ-qara dillərinə toxunur. İlk notlar kəndin səssiz küçələrində əks səda verərək Şuşanın hər bir küncünə yayılır. Şuşa, 30 il ərzində belə bir möhtəşəm nəğmə dinləməmişdi. Nəinki Şuşa, hətta bütün Qarabağ bu musiqiyə darıxmışdı. Əzizbəyin barmaqları pianonun dillərində rəqs edərək hər bir notu çaldıqca, sanki Şuşanın ruhunu oyandırır, azadlıq havasını yenidən ona

bəxş edirdi. Hər notda bir azadlıq, hər melodiyada bir qələbə hekayəsi gizlənmişdi. Pianonun havası insanları cənginə alırdı. Əzizbəyin ifasında bir sehr, bir cazibə var idi. Bu musiqi insanları əsirinə çevirirdi.

Dağların qoynunda əks-səda verən pianonun zərif sədaları, əsgərlərin qəlblərində xoş hisslər oyadırdı. Pianonun köhnə dillərində ifa etdiyi "İncə Bellim" mahnısının melodiyası müharibənin gətirdiyi ağrıları, dağıntıları və acıları unutduraraq, insanlara ümid və sevinc gətirir. Onun ifası sanki dağların qəlbindən gələn bir çağırış kimi idi. Musiqi o gün hər bir əsgərin ruhunu oxşamış və onlara mənəvi dəstək olmuşdu. Bu musiqinin ruhani gücünü və insanların qəlbinə necə dərin təsir etdiyini göstərən bir fakt idi.

Əzizbəyin pianoda “Ben yoruldum hayat” mahnısını ifası onun ürəkdən gələn hissləri ilə dolu idi. Onun musiqisi qələbənin gətirdiyi sevinc və fəxarətlə yanaşı, itirilmiş yoldaşların xatirəsini də daşıyırdı. Bu Əzizbəyin musiqisinin gücünü və təsirini daha da artırdı.

Əzizbəyin qarmonda və pianoda ifa etdikləri mahnılar tezliklə sosial şəbəkələrdə yayılaraq trendə çevrilir. Onun ifasını dinləyən hər kəsin gözləri dolurdu. Onun ifalarında bir şəhidlik havası var idi. Xudayarın ifası kimi bu musiqi də insanları təsir altına alırdı. Amma

Xudayardan fərqli olaraq, Əzizbəy yaşayırdı və onun hekayəsi davam edirdi.

Musiqi Əzizbəy və döyüş yoldaşları üçün ortaq bir dil, ortaq bir birləşmə vasitəsi olmuşdu. O, pianoda ifa edərkən hər kəsin qəlbinə toxunmağı bacarırdı. Musiqi onların evlərinə, ailələrinə olan bağlılığını daha da möhkəmləndirir, qəlblərində bir parça ümid və rahatlıq yaradırdı. Əzizbəyin musiqisi onların birliyini və döyüş ruhunu gücləndirir, qəlblərinə güc və inam verirdi. Hər ifadan sonra, yoldaşları Əzizbəyə təşəkkür edərək, onun musiqisinin ruhlarını necə oxşadığını, bundan necə zövq aldıqlarını dilə gətirirdilər.

Əzizbəyin ifası təkcə musiqi ilə deyil, həm də doğma yurduna və insanlarına olan sevgisi ilə dolu idi. O, hər notda, hər sədada vətənə olan sevgisini, xalqının musiqi irsinə olan bağlılığını ifadə edirdi. Qarabağ müharibəsinin ağır yükünü daşıyan əsgərlərimiz Əzizbəyin paylaşdığı bu musiqi anları ilə qələbənin şirinliyini dadır, onların birlikdə keçirdikləri çətin günləri daha yaddaqalan və mənalı edirdi. Lakin bu torpaqlar hələ də onlara çox şeyi danışmağa hazır idi.

Onun əməlləri Həzrət Əlinin hikmət dolu kəlamını sanki yenidən canlandırırdı. İmamın vəfalı dostlarından olan Osman ibn Hüneyf haqqında dediyi o dərin kəlam, sanki Əzizbəyin şəxsiyyətində təcəlli tapmışdı:

"Keçmişdə Allah yolunda bir qardaşım vardı. O, mənim gözümdə böyük idi, çünki dünya onun gözündə kiçik idi..." Əzizbəy bu kəlamın sözün həqiqi mənasında canlı bir nümunəsi idi. O, doğrudan da böyük insan idi, çünki dünya və onun bütün mal-mülkü onun gözündə dəyərsiz, kiçik bir şey idi.

# Evə qayıdış

*Mən bir uşaq, sən bir ana,*
*Odur ki, bağlıyam sana.*
*Hansı səmtə, hansı yana*
*Hey uçsam da yuvam sənsən,*
*Elim, günüm, obam sənsən.*

*Səməd Vurğun*

2021-ci ilin yanvar ayı idi. Sabirabadda qış quru və sərt keçsə də, yerə bir dənə də olsun qar düşməmişdi. Yerdə qar olmasa da, insanın iliyinə işləyən soyuq hər nəfəs aldıqca insana üşütmə gətirirdi. Təbiət susmuşdu, amma bu sükutun içində çılpaq sahələrdə əsən küləyin səsi var gücü ilə duyulurdu.

Yanvar ayının onuncu gününün səhərində Qarabağın dağları qarla örtülmüş səssiz bir gözəllik içində idi. Ayazlı-şaxtalı bu yanvar günündə sevinc dolu bir xəbər Sabirabadda yayılır: təxris olunan Əzizbəy doğma kəndi Ulacalıya geri qayıdırdı. Yol boyu Əzizbəy ürəyində bir ananın öz övladına pıçıldadığı nəğməni hiss edirdi.

Kənd camaatı bu xəbəri eşidəndə, sanki qışın soyuğunu qıran bir istilik onların ürəklərinə yayıldı.

Hamı Əzizbəyi qarşılamaya çıxmışdı. Onun geri qayıdışı həm sevinc, həm də qürur dolu bir an idi.

Əzizbəy kəndin yollarında addımlayarkən insanlar onun igidliyindən, cəsarətindən danışırdı və hər kəs onu öz qəhrəmanı kimi görürdü. Bu qayıdış sanki uzun bir qışdan sonra gələn ilk bahar günəşinin istiliyi kimi, kəndin qəlbində yeni bir həyat yaratdı. Əzizbəy bu anın ağırlığını hiss edərək, dərin bir nəfəs aldı. O, bilirdi ki, bu torpaqlar uğrunda apardığı mübarizə, yalnız bir döyüş deyildi. Bu bir xalqın azadlıq və sevgi uğrunda verdiyi mübarizənin bir parçası idi.

Nəhayət, Əzizbəy uşaqlıq xatirələrinin dolu olduğu həyətə çatır. Onun gözləri doğma evini görən kimi dolur, bu anın böyüklüyünü dərk etmək üçün bir anlıq ayaq saxlayaraq ərtaf aləmi diqqətlə nəzərdən keçirir. Həyətdən içəri girəndə ətrafdakı hər şey ona həm tanış, həm də bir az yad gəlirdi. Çünki uzun müddət idi ki, buralardan uzaqda idi. Həyətlərində bir anlıq dayanaraq dərindən bir nəfəs alır. Burada olmaq ona hər şeyin yaxşı olacağını hiss etdirirdi. Atası Etibar oğlunun qarşısına çıxıb, onun ayaqları altında nəzir elədiyi qurbanı kəsir. Bu qədim bir ənənə idi - geri dönən qəhrəman üçün Allaha minnətdarlıq etmək.

Qurbanın qanı torpağa axarkən bu an sanki bütün kəndin yaddaşına həkk olur. Əzizbəy bir anlıq atası ilə

göz-gözə gəlir. Onlar heç bir kəlimə ifadə etmədən bu ani və qısa baxışmada uzun-uzadı söhbət edirlər. Bu an atanın və oğulun ürəklərində yazılan bir hekayə idi. Kənd camaatı bu səhnəni seyr edərkən onların gözlərində həm göz yaşları, həm də qürur vardı.

Əzizbəyin anası Fatma xanım bu zaman evdəki işləri ilə məşğul idi. Əzizbəyi görəndə gözləri dolan Fatma xanım uzun müddətdir ki gözlədiyi anın nəhayət gəldiyini anlayır. Əzizbəy anasına tərəf qaçaraq onu bağrına basır. Anasının qolları arasında olarkən sanki yer üzündəki bütün ağrılar və çətinliklər bir anda yox olur.

Fatma xanım oğlunu həyətdə bağrına basarkən göz yaşlarını saxlaya bilmir. Gözləri dolu halda – Oğlum, çox şükür ki, qayıtdın – dedi. Əzizbəyin gözlərində də yaşlar vardı, amma bunlar sevinc göz yaşları idi. O, həyatın, müharibənin ağır yükünü bir anlıq unudaraq, anasının isti qollarında sakitlik tapır. Oğlunun üzündəki yaşları silən Fatma xanım titrək səsi ilə – Əzizbəy! Sən gəldin, oğlum, çox şükür! – deyərək onu bir daha bağrına basır. Əzizbəy sakitcə "Anacan, mən buradayam. Sənin üçün çox darıxmışam" deyərək anasının üzündən öpür.

Fatma xanım oğlunun başını sığallayaraq – Səni sağ-salamat görmək, mənim üçün ən böyük sevincdir. Hər gün dua edirdim ki, geri qayıdasan. Allah dualarımı qəbul etdi. Çox şükür – deyir. Əzizbəy anasının

qucağında özünü bir daha uşaq kimi hiss edir. O zamanlar hər şey daha sadə və daha təhlükəsiz idi. Anasının əlləri ilə yanağını sığallaması ona uşaqlıq xatirələrini geri gətirirdi.

Əzizbəy anasının əlini tutaraq – Anacan, mən sağ-salamat qayıtdım. Sənə söz verirəm, hər şey yaxşı olacaq – deyir. Onun təsəlliverici səsi anasının ürəyindəki ağır yükü biraz da olsa yüngülləşdirirdi. Fatma xanım onun üzünə baxaraq – Mən səninlə qürur duyuram, Əzizbəy. Sən bir qəhrəmansan.– deyir.

Həyətdəki bu görüş Əzizbəy üçün müharibədən sonra yaşadığı ilk həqiqi sükunət anı idi. O, anası ilə birlikdə evə daxil olur. Anasının hazırladığı yeməklərin qoxusu, onun üçün evin əsl mənasını yenidən aşkar edirdi. Bu yalnız yemək deyil, sevginin və qayğının təzahürü idi. Onlar birlikdə oturub uzun-uzun söhbət edərək yemək yeyirlər. Fatma xanım Əzizbəyin keçdiyi çətinlikləri və gördüyü dəhşətləri dinlədikcə ürəyi bir daha ağırlaşırdı, lakin o, oğlunun sağ-salamat evə dönməsindən ötəri dərindən minnətdar idi.

# Kollecə qayıdış

*Musiqi təhsili digərlərindən daha güclü bir alətdir, çünki ritm və harmoniya ruhun daxilinə yol tapır.*

*Platon*

Müharibə... Təkcə atəş səsləri, qələbə və məğlubiyyət, itirilmiş və ya qazanılmış torpaqlar, bombalar və mərmilər deyil. Müharibə həm də ondan sonrakı ömürdür — o dəhşəti yaşamış, hər anını hiss etmiş insanların ömrü.

Gözləri önündə əzizlərini, doğmalarını itirmiş, dünənəcən sadə və sakit bir həyat sürən insanların birdən-birə düşmənlə üz-üzə qalaraq can alan əsgərə çevrildiyi bir həyat. Müharibə təkcə cəbhədə yaşanan anlardan ibarət deyildi. O, həm də ondan sonrakı həyatın acı bir mirasıdır. Müharibə bitdikdən sonra belə, döyüş səsləri, partlayışlar hələ də qulaqlarda cingildəyirdi. Bir vaxtlar adi insanların indi necə əsgərə çevrildiyini, müharibənin onların ruhunda necə dərin izlər buraxdığını görmək olar.

Bu insanlar müharibənin bitdiyi gün sevinmədilər; onların döyüşü davam edirdi, ancaq indi bu daxili bir müharibə idi. Hər bir xatirə, hər bir itirilmiş dost, hər bir qırıq parça onların ruhunda müharibənin izlərini

daşıyırdı. Onların gecələri qısa, kabusları uzun idi. Onlar artıq sakit bir həyat yaşamağın mümkün olmadığını, sadə insan kimi qalmağın mümkünsüzlüyünü anlayırlar. Müharibə onların ruhlarını və düşüncələrini dəyişərək əbədi olaraq yaralamışdı. İndi isə onlar bu yaralarla yaşamaq, bu travmalarla barışmaq üçün çalışırlar. Lakin bir şey aydındır — müharibə bitsə də onun qalıqları hələ də insan ömrünün hər addımında özünü göstərirdi.

Əzizbəy üçün də həyat artıq əvvəlki kimi deyildi. Döyüşlərdə qazandığı təcrübə onun dünya baxışını dəyişdirmişdi. Döyüş meydanında yaşadığı hadisələr onun içində bir çox suallar və narahatlıqlar yaratmışdı. O, həyatın və ölümün incə sərhədini keçmişdi. Müharibənin travmatik təsirləri, onun gündəlik həyatında da özünü göstərirdi. Gecələr döyüş səhnələri və itirdiyi yoldaşlarının xatirələri onu tərk etmirdi.

Daxili gərginlik və sükunət axtarışı Əzizbəyin ruhani vəziyyətini daha da mürəkkəbləşdirirdi. O, içində bir boşluq hiss edirdi və bu hissi doldurmaq üçün müxtəlif yollar axtarırdı. Hər dəfə tək qalanda bu anları düşünür və yaşadığı təcrübələrin mənasını anlamağa çalışırdı. Bu onun üçün çətin, amma zəruri bir proses idi — həyatda özü ilə barışmaq üçün bir yol axtarırdı.

Əzizbəyin döyüşdən sonrakı bərpa prosesində dostlarının və ailəsinin dəstəyi mühüm rol oynayır. Onlar

birlikdə ona bu çətin dövrü keçməsinə kömək edir, onun yanında olaraq, ona mənəvi dəstək verirdilər. Onlar Əzizbəyin yaşadığı travmaları və zədələri anlamağa çalışır və ona sevgilərini və dəstəklərini göstərirdilər. Bu Əzizbəy üçün böyük bir təsəlli idi.

Müharibədən sonra görüşlərimizdə Əzizbəy oradakı vəziyyət haqqında çox az danışırdı. Həmişə susqun, qapalı olur, söhbətlərini qısa saxlayırdı. Yalnız cəbhədə çoxlu oğullarımızın şəhid olduğunu qısa və acı bir tonda qeyd edirdi. Hər dəfə bu barədə danışarkən içində dərin bir kədər hiss olunurdu. Deyirdi ki, "Qollarımın arasında nə qədər igidlər şəhid olub". Bu hadisələr ona ağır psixoloji zərbələr vurmuşdu. Döyüşdə baş verənləri mənə danışdıqca, mən dəhşətə gəlirdim və düşünürdüm ki, Əzizbəy orada nələr görüb, nələr yaşayıb.

Döyüş meydanında keçirdiyi ağır günlərdən sonra, Əzizbəy yenidən Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinə qayıdaraq təhsilinə davam etməyə qərar verir. O, döyüş təcrübələrini musiqiyə çevirərək, həm özünü ifadə etməyi, həm də başqalarına ümid və güc verməyi arzulayırdı. Qarabağ müharibəsində yaşananları unutmamağı və gələcək nəsillərə bu hadisələrin əhəmiyyətini çatdırmağı özünə borc bilirdi.

Əzizbəyin Kollecə qayıdışı yalnız musiqi təhsili üçün deyil, həm də döyüşdən sonra özünü yenidən tapmaq üçün bir cəhd idi. Əzizbəy üçün musiqi ruhi zədələrini sağaltmaq və həyatında yeni bir başlanğıc etmək üçün bir vasitə olur.

Kollecə həm tələbə, həm də müharibə qəhrəmanı kimi geri dönən Əzizbəy burada musiqini yalnız bir sənət kimi deyil, həm də dərin mənəvi bir ifadə vasitəsi olaraq görürdü. Döyüş təcrübələri onun baxışlarını və hisslərini dəyişdirmişdi. Qarabağda azadlıq uğrunda apardığı mübarizədən sonra, Əzizbəyin həyatında musiqi bir növ müalicə rolunu oynayırdı. Burada həm keçmişin yaralarını sağaltmağa çalışır, həm də musiqi ilə yenidən bağlanmaq üçün yollar axtarırdı.

Əzizbəyin döyüş təcrübələri onun insanlarla əlaqələrində daha açıq və empatik olmasına səbəb olur. Kollecdəki dostları ilə birgə keçirdiyi vaxt onun üçün ruhən təravətləndirici və yeniləyici olur. O, daha çox enerji və istəklə çalışaraq musiqi təhsilinin hər anını dəyərləndirir, qarmonun hər bir sədasında özünü ifadə etməyə çalışırdı. Kollecdəki dərslər onun üçün yalnız musiqi texnikası və nəzəriyyə öyrənməkdən ibarət deyildi. Bu həm də özünü və həyatını daha yaxşı anlamaq üçün bir yol idi. O, musiqi vasitəsilə həyatın dərinliklərini və ziddiyyətlərini daha yaxşı anlamağa çalışırdı. Musiqi ona döyüş meydanında yaşadığı acıların

və itkilərin öhdəsindən gəlmək üçün bir növ şəfa verirdi. O, musiqi ilə öz hisslərini ifadə edir, içindəki duyğuları və düşüncələri melodiyalara çevirirdi. Hər notda, hər melodiyada həyatın incəliklərini və dərinliyini görürdü.

Kollecdəki təhsili Əzizbəyin gələcəyə dair arzularını yeniləyir. O, musiqi ilə bağlı daha böyük planlar qurmağa başlayır. Təhsilini tamamladıqdan sonra, Əzizbəy musiqi sahəsində peşəkar bir karyera qurmaq, həm ifaçı, həm də müəllim olaraq musiqi dünyasında öz izini buraxmaq istəyirdi. O, musiqini yalnız öz ölkəsində deyil, həm də dünya səviyyəsində tanıtmaq arzusunda idi.

Əzizbəy musiqinin insanların ürəklərinə və ruhlarına toxunma gücünə inanırdı. O, musiqinin həm sənət, həm də şəfa olduğunu bilirdi. Həyatın çətinlikləri və ziddiyyətləri ilə üzləşən insanlara musiqi vasitəsilə ümid və sevinc vermək istəyirdi. Bu onun həyat məqsədi oldu — həm özü, həm də başqaları üçün musiqinin gücünü və gözəlliyini yaymaq.

Bir gün kollec rəhbərliyi Qarabağ Əlillərinə Qayğı İctimai Birliyi ilə əməkdaşlıq edərək xüsusi bir tədbir təşkil etmək qərarına gəlir. Bu tədbir Qarabağ müharibəsində iştirak edən Əzizbəyin təltif olunmasına və ona cəmiyyət tərəfindən göstərilən minnətdarlığın ifadəsinə həsr olunacaqdı.

2021-ci ilin noyabr ayı. Musiqi Kollecinin zalı müəllim və tələbərlə dolu idi. Tədbirin əvvəlində Kollecin direktoru Nazim Kazımov səhnəyə gələrək natiqə xas ciddiyyətlə, lakin ürəyi dolu halda sözə başlayır. Onun səsi otaqda əks-səda verərək bir anda hamının diqqətini toplayır. O, əvvəlcə Qarabağ müharibəsinin Azərbaycan tarixi üçün nə qədər önəmli olduğunu, bu müharibənin yalnız silahla deyil, ruhla, inamla qazanıldığını, rəşadətli ordumuzun Vətən torpaqlarını azad etmək üçün göstərdiyi qəhrəmanlıq və fədakarlığı, xüsusilə Əzizbəyin Qarabağdakı döyüşlərdəki fəaliyyətinə geniş yer ayıraraq, onun şücaətini və vətən sevgisini vurğulayır.

Tədbirin əsas hissəsində Qarabağ Əlillərinə Qayğı İctimai Birliyinin (QƏQİB) rəhbəri Firidun Məmmədov səhnəyə çıxır. O, cəmiyyətin diqqətini Qarabağ müharibəsinin Azərbaycan xalqı üçün nə qədər əhəmiyyətli olduğuna və ölkənin beynəlxalq arenada oynadığı rola yönəldir. Qarabağ müharibəsinin yalnız bir torpaq müharibəsi olmadığını, Azərbaycan xalqının beynəlxalq səhnədə sülh və ədalət axtaran bir xalq kimi özünü müdafiə etmə mübarizəsi olduğunu və bu mübarizədə göstərilən qəhrəmanlıqların bütün dünya üçün bir örnək olduğunu həmçinin Qarabağın azad edilməsinin beynəlxalq aləmdə Azərbaycanın mövqeyini gücləndirdiyini və ölkənin sülh və təhlükəsizlik uğrunda qlobal səylərdə mühüm rol oynadığını vurğulayır. Onun

sözləri cəmiyyətin və dünya ictimaiyyətinin Qarabağ müharibəsinə və Azərbaycanın beynəlxalq roldakı əhəmiyyətinə diqqətini çəkir.

Daha sonra Qarabağda uzun illərdən sonra Əzizbəyin ilk dəfə ifa etdiyi "Qarabağ şikəstəsi"nin həm azadlıq, həm də mədəni irsin dirçəlməsinin simvoluna çevrildiyini xüsusi olaraq vurğulayan Firidun Məmmədov Əzizbəy Muradovu səhnəyə dəvət edir. Gurultulu alqış sədaları altında səhnəyə çıxan Əzizbəy Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə göstərdiyi xüsusi qəhrəmanlıq və şəxsi şücaətə görə, həmçinin 30 ildən sonra Qarabağda ilk dəfə Qarabağ şikəstəsini ifa etdiyi üçün fəxri fərmanla təltif olunur. Qəlbi həm həyəcan, həm də qürurla dolu olan Əzizbəy onun üzərində əziyyəti olan kollecin direktoru Nazim Kazımov başda olmaqla kollec rəhbərliyinə və müəllimlərinə öz təşəkkürünü bildirir.

Təltifin təqdim olunmasından sonra, Əzizbəy özünü həm qürurlu, həm də həyəcanlı hiss edirdi. O, cəmiyyət tərəfindən yalnız bir musiqiçi və müharibə qəhrəmanı deyil, həm də Qarabağın mədəni irsinin yaşamasına və təbliğinə töhfə verən bir insan kimi qəbul edilmişdi. Onun üçün bu təltif həm də gələcəyə olan bir vəzifə idi: musiqi vasitəsilə Qarabağın səsini və ruhunu yaşatmaq və gələcək nəsillərə ötürmək.

# Sıra Baxışı

*Ya bir yol tap, ya da bir yol aç*

*Hannibal*

Kolleci müvəffəqiyyətlə bitirən Əzizbəy üçün artıq yeni bir həyat başlayırdı. Musiqi onun üçün hər şey idi, amma ürəyində daha böyük bir məqsədin olduğunu hiss edirdi. O, musiqiçi olmaqdan daha çox, ölkəsinə başqa yollarla xidmət etmək arzusunda idi. Vətən sevgisi və xidmət etmək arzusu onun qəlbində daim yer alırdı. Müharibə ona həm çox şey öyrətmiş, həm də çox şeyini almışdı. Müharibənin gətirdiyi acılar, itkilər və şəhid dostlarının xatirəsi onun qəlbini sıxırdı. O, bu ağrıları aradan qaldırmaq və xalqına daha çox xidmət etmək, həm cəmiyyətin təhlükəsizliyini təmin etmək, həm də gənclərə nümunə olmaq istəyirdi.

Polis məmurları ilə bağlı gördükləri, onların cəmiyyətdəki rolu ona dərin təsir etmişdi. Bu düşüncə ilə o, polis olmaq qərarına gəlir. Polislərin cəmiyyətə qayda-qanun yaratmaq üçün göstərdiyi səylər onu xeyli düşündürür. Bəlkə də bu, onun axtardığı yeni yol idi.

Polis olmaq fikri getdikcə onun qəlbində daha da yer alırdı. Bir gün Əzizbəy öz düşüncələrini ailəsi ilə paylaşır. Atası və anası onun fikirlərini dinlədikdən

sonra, onun bu seçiminə dəstək olurlar. Onlar Əzizbəyi həmişə dəstəkləmişdilər və onun yeni yolunda da yanında olmağa hazır idilər. Lakin polis olmaq üçün həm fiziki, həm də mənəvi cəhətdən ciddi hazırlıq tələb olunurdu.

Əzizbəy daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun respublikanın şəhər və rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirəcəyini öyrənir. O, polis sıralarına daxil olmaq üçün dərhal vaxt itirmədən ciddi fiziki hazırlığa başlayır. Hər səhər erkən saatlarda oyanıb, şəhərin parklarında qaçır, ağır idman hərəkətləri edirdi. Müharibədə qazandığı fiziki güc onun üçün bir üstünlük idi, amma o, daha da güclənmək və çevik olmaq istəyirdi. Fiziki gücü və çevikliyi artırmaq üçün hər gün saatlarla məşq edir, idman zalında müxtəlif ağırlıq qaldırma və kardio məşqləri edirdi. Günlər keçdikcə, onun bədəni daha da möhkəmlənir, gücü artırdı. O, yaxın döyüş texnikalarını öyrənərək, özünü müdafiə etmə bacarığını təkmilləşdirirdi. Bu məşqlər ona həm fiziki, həm də psixoloji cəhətdən güclənməyə kömək edirdi.

Fiziki hazırlıqla yanaşı Əzizbəy mənəvi cəhətdən də güclənməli idi. O, hər axşam meditasiya edərək düşüncələrini və hisslərini sakitləşdirirdi. Eyni zamanda, o, musiqidən də uzaq qalmırdı. Musiqi ilə keçirdiyi vaxt

onun üçün bir növ terapiya idi. Hər ifa etdiyi melodiya, ona sükunət və dinclik gətirirdi. Musiqi, onun ruhunu qidalandırır və mənəvi gücünü bərpa edirdi.

Əzizbəy polis sıralarına daxil olmaq üçün müraciət edərək qəbul üçün lazım olan sənədləri hazırlamağa başlayır. O, fiziki və psixoloji testlərdən keçir. Bu testlər onun hazırlığını qiymətləndirirdi. Nəticələr müsbət olur. Onun həm fiziki gücü, həm də mənəvi dayanıqlığı yüksək qiymətləndirilir.

Nəhayət, sıra baxışı günü gəlir. Respublikanın müxtəlif bölgələrindən gələn gənclər daxili işlər nazirinin qarşısında sıraya düzülürlər. Bu gənclərin arasında Əzizbəy də var idi. O, özünü həm fiziki, həm də mənəvi cəhətdən tam hazır hiss edirdi. Nazir Vilayət Eyvazov sıranın qarşısında dayanaraq, gəncləri diqqətlə nəzərdən keçirdi. Sıra baxışında 118 nəfər seçim turunun növbəti mərhələsinə buraxıldı ki, onlardan da 27 nəfəri Vətən müharibəsinin iştirakçısı idi. Əzizbəyin müharibədəki qəhrəmanlığı və göstərdiyi cəsarət onu digər namizədlərdən fərqləndirirdi. Nazir onun keçmişi haqqında məlumatlı idi və bu Əzizbəyin Çevik Polis Alayının sıralarına seçilməsində mühüm rol oynayacaqdı.

# Polis məktəbi

*Polisə olan hörmət dövlətə olan hörmətdir.*

*İlham Əliyev*

Sıra baxışını uğurla keçdikdən sonra, Əzizbəy yeni həyatına başlayır. O, Arif Heydərov adına siravi və kiçik rəis heyəti hazırlayan məktəbə daxil olur. Burada keçirdiyi vaxt, ona yeni bir dünyanı tanıdır. Burada o, hüquq, kriminalistika və ictimai təhlükəsizlik sahələrində geniş təhsil alır. Fiziki gücünü və peşəkar bacarıqlarını daha da artırmaq üçün hər gün saatlarla məşq edir, nəzəri bilikləri öyrənirdi. Polis təlimi həm də onun intizamını və liderlik bacarıqlarını daha da inkişaf etdirirdi. Hərbi təcrübəsi burada ona böyük kömək olur, çünki o, artıq çətin şəraitdə çalışmaq, sürətli qərarlar vermək və komandada işləmək bacarıqlarına sahib idi.

Burada keçirdiyi müddət ərzində, o, həm fiziki, həm də mənəvi cəhətdən daha da güclənir. Arif Heydərov adına sıravi və kiçik rəis heyəti hazırlayan məktəbdə Əzizbəy, insanların təhlükəsizliyini təmin etmək və qanunu qorumaq missiyasının nə qədər vacib olduğunu daha da dərindən dərk edir. Burada qazandığı yeni təcrübələr onun peşəkar bacarıqlarını və cəsarətini daha da artırır.

Arif Heydərov adına sıravi və kiçik rəis heyəti hazırlayan məktəbi müvəffəqiyyətlə bitirdikdən sonra, Əzizbəy Daxili İşlər Nazirliyinin Əlahiddə Çevik Polis Alayının Xüsusi təyinatlı taborunda polis kiçik serjantı olaraq işləməyə başlayır. İlk günlər o, yeni mühitə alışmağa çalışaraq yeni vəzifələri ilə tanış olur. Əzizbəy üçün bu iş, özünü insanlara və cəmiyyətə xidmət etmək üçün bir vasitə kimi görünürdü. Bu onun üçün yeni bir döyüş meydanı idi. Burada o, həm cəmiyyətin təhlükəsizliyini təmin edir, həm də gənclərə nümunə göstərirdi.

Əzizbəy hadisələrə sürətli reaksiyası və düşüncəli hərəkətləri ilə qısa müddət ərzində yoldaşlarının diqqətini çəkir. Xidmət zamanı soyuqqanlılığı və peşəkarlığı ilə seçilən Əzizbəy yeni vəzifəsinin nə qədər vacib olduğunu və bu sahədə də yaxşı bir mütəxəssis ola biləcəyini göstərdi. Əzizbəy bir çox çətinliklər və təhlükələrlə üzləşdi. Lakin o, hər zaman cəsarəti və peşəkarlığı ilə bu çətinlikləri dəf etməyi bacarırdı. Onun liderlik qabiliyyəti və fədakarlığı həmkarları tərəfindən yüksək qiymətləndirilirdi. Hər bir əməliyyatda, onun musiqi və döyüş təcrübəsi ona kömək edirdi.

Əzizbəy polis sıralarında xidmət etdiyi dövrdə də musiqi alətindən bir an belə ayrılmadı. Qarmon və sintezator onun üçün həm bir yoldaş, həm də iç dünyasını ifadə etmə vasitələri idi. O, işdən sonra və boş

vaxtlarında qarmon və sintezator ilə məşğul olur, musiqi ifa etməyə davam edirdi. Hətta bəzi vaxtlarda, polis yoldaşları üçün ifa edərək onların da mənəvi ruhunu yüksəldirdi. Musiqi, onun həyatının əvəzolunmaz bir hissəsi olaraq qalmaqda idi və o, bu sevgini peşəkar həyatı ilə birləşdirməyi bacarmışdı.

Əzizbəyin kollecdən dostu olan Toğrul Qasımovun kamançada ifa etdiyi restoranda Əzizbəy də gecələr işdən sonra sintezator arxasına keçib ifa edirdi. Onun əlləri sanki klavişlərin üzərində rəqs edirdi. Əzizbəyin musiqisi həm daimi müştəriləri, həm də təsadüfən gələn qonaqları dərin düşüncələrə dalmağa vadar edirdi.

Bir gün, illərdir Azərbaycandan uzaqda yaşayan, təxminən 55-60 yaşlarında bir kişi, dostları ilə təsadüfən restorana gəldi. Kişinin üzündə yaşadığı illərin izləri, keçmişin acı və şirin xatirələri əks olunmuşdu. Sifariş verdiyi yeməyini gözləyən bu qonaq, gözlənilmədən Əzizbəyin ifasını eşidir. Əzizbəyin ifası o qədər təsirli idi ki, kişi bir anlıq bütün unudulmuş xatirələrinin yenidən canlandığını hiss edir. Melodiyalar onu keçmişin dərinliklərinə aparırdı. Həmin an, gözləri önündə uşaqlıq illəri, o çətin, lakin xoşbəxt gənclik dövrləri canlanır. Vətəninin musiqisi, illərdir yaşadığı uzaq torpaqlarda belə onun qəlbində hər zaman bir nostalji olaraq qalmışdı. Əzizbəyin ifası bitəndə, musiqidən təsirlənərək, ayağa qalxıb Əzizbəyin yanına getdi. Onun

üzündəki təbəssüm, musiqidən aldığı zövqü və minnatdarlığını əks etdirirdi. – Salam, gənc dostum – deyərək kişi Əzizbəyə yaxınlaşaraq salam verir. O, – Sənin ifa etdiyin bu melodiyalar mənim ürəyimə toxundu. Mən 20 ildən çoxdur ki, Azərbaycandan kənarda yaşayıram. Bu mahnı məni uşaqlıq illərimə, çətinliklə keçən o illərə qaytardı. Mən bu səslərə, bu notlara qulaq asmağa o qədər həsrət idim ki, bunu sözlə ifadə etmək çətindir. Harada təhsil almısan? Bu alətdə belə mükəmməl ifa etməyi necə öyrənmisən? – deyərək Əzizbəydən soruşur.

Əzizbəy təvazökarlıqla kişinin suallarını cavablandırır. Onun səsindəki sadəlik, içdən gələn təbii bir natiqlik idi. Bu ona kollec illərindən miras qalan bir keyfiyyət idi – musiqiyə olan sevgisi və bu sevgini insanlarla paylaşma arzusu.

– Bilirəm, bu xahişim bəlkə də qeyri-adi gələcək, amma mənim üçün çox xüsusi bir mahnı var. Məhəbbət Kazımovun "Öldürəcək bu qız məni" mahnısını ifa edə bilərsənmi? Bu mahnı mənim həyatımda çox böyük bir rol oynayıb. – kişi gözlərində sevinc və həyəcan qarışığı bir hisslə Əzizbəyə deyir.

Əzizbəy gözlərini yumub dərindən bir nəfəs alır. O, sintezatorun klavişinin ağ-qara dillərinə toxunmağa başlayır. İlk notlar səslənməsi ilə restoranın abu-havası

dəyişir. Əzizbəyin ifası yalnız bir səs deyildi, həm də duyğuların bir ahəngi idi. Hər bir not kişiyə onun gənclik illərini, keçmişdə yaşadığı o məsum hissləri yenidən xatırladırdı.

Musiqi bitəndə, həmin kişi artıq öz göz yaşlarını saxlaya bilmədi. O, Əzizbəyin əlini tutaraq – Bu mahnı mənim uşaqlıq illərimə, gənclik illərimə apardı. Mən bu mahnılara qulaq asmağa o qədər həsrət idim ki, bunu sözlə ifadə edə bilmərəm. Sən çox istedadlısan. Xahiş edirəm, bu sənətivi davam et və onu daha da mükəmməlləşdir – dedi.

Əzizbəyin gözləri dolmuşdu. Bu tərif, onun üçün təkcə bir musiqiçi olaraq deyil, bir insan olaraq da böyük əhəmiyyət kəsb edirdi. Bu an həm Əzizbəyin, həm də Toğrulun yaddaşına əbədi həkk olunur. O gün restoranda yaşananlar sadəcə bir gecənin hissləri deyildi, bu, bir musiqiçinin bütün varlığı ilə vətəninə, mədəniyyətinə olan sevgisinin təzahürü idi.

# Antiterror əməliyyatı

*Böyük məsələlər qətnamə və danışıqlarla deyil, dəmir və qanla həll edilir!*

*Otto fon Bismark*

2023-cü ilin sentyabrında, Azərbaycanın təhlükəsizlik qüvvələri müstəqillik və təhlükəsizliyi qorumaq üçün yeni bir antiterror əməliyyatı hazırlayırdı. Bu zaman Əzizbəy artıq çevik polis alayında kiçik serjant olaraq xidmət edirdi. Qarabağda müharibə təcrübəsi qazanmış bu gənc, hər zaman vətəninə xidmət etməyə hazır idi. Xankəndidəki vəziyyətin gərginləşməsi və təhlükənin getdikcə artması səbəbindən, bölgədəki təhlükəsizliyi tamamilə bərpa etmək və mülki əhalini qorumaq üçün antiterror əməliyyatı keçirmək vacib idi. Əzizbəy və yoldaşları əməliyyatda iştirak etmək üçün seçilirlər.

Əməliyyata hazırlıq intensiv gedirdi. Əzizbəy və yoldaşları Xankəndiyə doğru yola çıxmadan əvvəl, hərtərəfli hazırlıq keçirlər. Təlimlər, strategiya müzakirələri və təhlükəsizlik tədbirləri ən yüksək səviyyədə təşkil edilir. Onlar hər bir detalı nəzərə alır, mümkün təhlükələri analiz edirdilər. Əzizbəyin sakit və qətiyyətli səsi, həmkarlarına güvən və cəsarət verirdi.

Missiyanın təhlükəli olduğunu bilsələr də, hamısı Əzizbəyi örnək götürərək cəsarətlə irəliləyirdi.

Əzizbəy yola çıxmazdan əvvəl ailəsi və yaxınları ilə vidalaşaraq onlardan halallıq alır. Ancaq bu vidanın onun üçün sonuncu olacağını heç kimin ağlına belə gəlmirdi. Yola çıxma vaxtı gəldikdə, konvoy hər zamankından daha ehtiyatlı və diqqətli idi.

Sentyabrın 19-u konvoy yola düşür. Hər şey ilk başda nisbətən sakit idi. Əzizbəy yoldaşları ilə birlikdə irəliləyərkən, yolun hər iki tərəfini diqqətlə izləyirdi. Ətrafdakı təbiət, təhlükənin nə qədər yaxın olduğunu bilmədən, sakit və gözəl görünürdü. Amma hər an hər şey dəyişə bilərdi. Əzizbəy həmişə kimi çox diqqətli idi, çünki qarşısında böyük bir risk var idi.

Xankəndiyə yaxınlaşdıqda konvoy ani bir partlayışla sarsılır. Əzizbəyin də olduğu maşın tankəleyhinə minaya düşür. Partlayışın səsi dağlarda əks-səda verir. Mina partlayışının təsiri ilə maşın yan tərəfə çevrilərək alovlar içində qalır. Partlayışın yaratdığı səthdə xəsarət alanlar vardı və vəziyyət getdikcə pisləşirdi. Partlayışın təsiri ilə Əzizbəy ağır yaralanır. Həmkarları onun təhlükəsizliyini təmin etməyə çalışırlar, amma vəziyyət artıq çox ağır idi.

Əzizbəy ağır yaralı halda yerə düşür. Bədəninin müxtəlif nahiyyələrində qəlpə və yanıq izləri vardı. Partlayışdan sonra, komanda dərhal təcili tədbirlər görməyə başlayır. Əzizbəy ağır vəziyyətdə idi, amma o, hələ ölməmişdi. Həmkarları dərhal onunla maraqlanır və mümkün olan hər şeyi edərək onu təcili olaraq ən yaxın tibbi mərkəzə çatdırmağa çalışırlar. Onun nəfəsi ağırlaşmış, bədənindən çox qan itirmişdi. Amma o, hələ də şüurunu itirməmişdi. Hər keçən an onun üçün həyati əhəmiyyət daşıyırdı. Gözlərini səmaya dikən Əzizbəy Qarabağda keçirdiyi günləri, döyüş yoldaşlarını, ailəsini və musiqini düşündü. Bu an onun üçün həm hüznlü, həm də qürur dolu idi. Şəhid olmaqdan qorxmurdu, çünki o, vətəninə canını fəda etməkdən qürur duyurdu. Gözlərini açıq saxlamağa çalışsa da bədəni artıq gücdən düşmüşdü.

Əzizbəy təcili olaraq ən yaxın xəstəxanaya çatdırılır. Xəstəxananın təcili yardım otağına girərkən, həkimlərin gözlərindəki ciddilik hər şeyi deyirdi. Bu həyatla ölüm arasında gərgin bir mübarizənin başlanğıcı idi. Həkimlər dərhal onun həyatını xilas etmək üçün müdaxiləyə başlayırlar. Xəstəxanada tibb personalı onun vəziyyətini sabitləşdirməyə çalışsa da, yaraların ağırlığı çox idi. Qanaxmanı dayandırsalar da, partlayış onun bədənində dərin zədələr yaratmış, sinirlərinə və beyin toxumalarına ciddi ziyan vurmuşdu. Onu burda müalicə etməyin qeyri-mümkün olduğunu anlayan həkimlər onu

təcili şəkildə Bakıya göndərirlər. Hər bir saniyə qızıl qədər dəyərli idi.

Bakıda Respublika Neyrocərrahiyə Xəstəxanasına çatdırıldıqdan sonra həkimlər Əzizbəyi dərhal əməliyyat otağına aparırlar. Onun həyatı üçün ciddi mübarizə başlayır. Həkimlər bütün bacarıqlarını səfərbər edərək onun həyatını xilas etməyə çalışırlar. Əməliyyat saatlarla davam edir. Amma yaralar çox ağır idi, beyin nahiyəsi ciddi zədələnmişdi. Əzizbəyin vəziyyəti kritik idi. Onun nəfəsi zəifləmiş, ürək döyüntüləri yavaşlamışdı. Həkimlər hər bir detalı nəzərə alaraq Əzizbəyi yaşatmağa çalışsalar da, vəziyyət getdikcə pisləşirdi.

Əzizbəyin ailəsi və yaxınları hadisədən xəbər tutan kimi xəstəxanaya axışırlar. Xəstəxananın həyəti günün hər anında Əzizbəyin ailə üzvləri və dostları ilə dolu idi. Hamı göz yaşları içində dua edir, Əzizbəyin sağalması üçün ümidlərini itirməməyə çalışırdılar. Onun anası, atası, qardaşları, yaxın qohumları və dostları həyəcanla xoş bir xəbər gözləyirdilər, hər saniyə qəlblərində bir ümid işığı yanırdı.

Günlər keçdikcə xəstəxananın həyəti bu ailənin gözləmə yerinə çevrilirdi. Xəstəxananın soyuq daşları üzərində, Əzizbəyin ailəsi bir an olsun yerindən tərpənmirdi. Hər telefon zəngi, hər açılan qapı onların qəlbində bir ümid doğururdu. Amma eyni zamanda

qorxu ilə dolu bir narahatlıq da vardı. Ailənin dostları da onları yalnız qoymur, onların dərdinə şərik olurdu.

Xəstəxanada hər gün bir ömür kimi keçir, hər saat sonsuzluğa bənzəyirdi. Həkimlər mümkün olan hər şeyi edirlər, amma Əzizbəyin bədənindəki zədələr həddindən çox ağır idi. O, koma vəziyyətində idi.

Hər səhər ailə və yaxınları yeni bir xəbərin gəlməsini gözləyirdi. Onlar Əzizbəyin özünə gələcəyinə, gözlərini açacağına, sağalacağına ümid edirdilər. Xəstəxananın soyuq divarları arasında zaman çox yavaş keçirdi, hər an uzun illər kimi hiss olunurdu. Gözlərdəki həyəcan və qorxu, ürəklərdəki ümid və sevgi ilə qarışmışdı. Ailəsi hər dəfə ondan bir xəbər gəldikdə, nəfəsini tutaraq gözləyir, göz yaşları ilə dua edirdilər. Hər kəsin ürəyində yalnız bir ümid var idi - Əzizbəyin sağalması.

İki həftə boyunca xəstəxana həyətində gecə-gündüz heç kəs buradan ayrılmırdı. Hər kəs öz ürəyində bildiyi bütün duaları edirdi, amma Əzizbəyin vəziyyəti stabil olaraq qalırdı. O, koma vəziyyətində idi və həkimlər onun bədənindəki ağır zədələrin təsirini azaltmağa çalışırdılar. Burada keçirdikləri zaman həm ailə, həm də dostları üçün sanki sonsuz bir sınaq idi. Hər dəfə ümidləri artıran kiçik bir irəliləyiş xəbəri alsalar da, ardından gələn xəbər onlara yenidən əzab verirdi.

Onun yoldaşları çevik polis alayında xidmət edən dostları da tez-tez xəstəxanaya gəlir, onun üçün dua edir və ailəsini dəstəkləyirdilər. Hər birinin qəlbində Əzizbəyi son bir dəfə görmək, onunla danışmaq arzusu vardı.

Gecələr boyu xəstəxananın həyətində göz yaşı tökülürdü. Ailəsi hər dəfə içəri girib Əzizbəyi ziyarət edəndə qəlblərində ağır bir yük hiss edirdilər, amma onu sağ görmək arzusu bu yükü biraz da olsa yüngülləşdirirdi.

Artıq iki həftə keçmişdi. Həkimlər hələ də bütün səylərini səfərbər edirdilər, amma Əzizbəyin bədəni artıq daha taqətdən düşmüşdü. Onun ürəyi tədricən zəifləyərək sonda bəzən hətta dayanmaq həddinə çatırdı. Həkimlər daha çox bir şey edə bilməyəcəklərini başa düşdükdə, ailəsinə vəziyyətin kritik olduğunu bildirməyə məcbur olurlar.

Oktyabrın 5-i Əzizbəyin vəziyyəti getdikcə daha da ağırlaşır. Onun bədəni bu mübarizəyə daha çox tab gətirə bilmirdi. Ürəyi artıq çox zəif döyünür, nəfəsi yavaş-yavaş sönürdü.

Oktyabrın 6-sı səhər saatlarında Əzizbəy ürəyində vətənə olan sevgisi ilə son nəfəsini verərək əbədiyyətə qovuşur. Xəstəxananın dərin sükutunu hıçqırıqlar, acı fəryadlar, qırıq-qırıq qışqırıqlar pozur. Onun şəhid

olması xəbəri ailə üzvlərini və dostlarını kədərə bürüyür. Onlar Əzizbəylə son dəfə vidalaşmaq üçün xəstəxananın həyətində yığışırlar. Əzizbəyin qəhrəmanlıqla dolu həyatı, bu acı sonluqla başa çatmışdı. Ailə üzvləri, yoldaşları və bütün millət onun üçün göz yaşları axıdırdı. Əzizbəyin şəhidliyi onların ürəyində silinməz bir iz buraxır.

# Şəhadət

*Təyəmmüm qıl desəm, yoxdur bu dünyada təmiz torpaq,*
*Şəhidlər qanı basmışdır bütün bərrü – biyabanı.*

*Xaqani Şirvani*

Günəş hələ səhərin ilk işıqlarını yayırdı ki, Bakıda Göy məscid kimi tanınan Əjdərbəy məscidi şəhid Əzizbəy Muradovu qəbul etmək üçün öz qapılarını açmışdı. Qəhrəmanlıqla dolu bir həyatın son dayanacağı olan bu məscid, onun cənazəsinin son yolçuluğuna başlamaq üçün seçilmişdi. Hər daşında, hər küncündə müsəlman dünyasının ən gözəl memarlıq nümunələri əks olunan bu məscid həm Kərbəladakı məscidi, həm Məkkədəki Kəbə evini xatırladırdı. Məscidin hündür tavanları, qədim və əzəmətli divarları, sanki bu anı gözləyirmiş kimi.şəhidin ruhunu qəbul etməyə hazır idi. Məscidin içindəki sükut, şəhidin ruhunun bu müqəddəs məkanda dinclik tapacağına inamla dolu idi.

Əzizbəyi məscidə gətirənlər arasında onun ailəsi, yaxınları, dostları və silahdaşları da vardı. Hər kəsin üzündə dərin kədər eyni zamanda qürur hissi oxunurdu. Əzizbəyin son yolçuluğu, məhz burada, Allahın evində başlayacaqdı.

Məscidin içində dərin bir sükut hökm sürürdü. Şəhidin bədəni ehtiramla yuyularaq təmizlənir. Əslində onun ruhu bu dünyadan ayrılmadan əvvəl təmizlənmişdi. Yuyulma mərasimi İslamın qaydalarına uyğun olaraq, xüsusi bir diqqətlə icra edilir. Hər bir damcı su, sanki onun bədənindən günahları yuyub aparır, onu əbədi səadətə hazırlayırdı.

Yuyulmadan sonra kəfənlənmə mərasimi başlayır. Ağ kəfən şəhidin bədəninə sarıldıqca, onun bədəni əbədi sükutun içində bürünürdü. Kəfən sadəcə bir parça deyil, onun üçün axirət dünyasına açılan bir pərdə, bu dünya ilə vidalaşma, yeni bir aləmə keçid idi. Kəfən bədəninə sarıldıqca, sanki onun ruhu azad olur, bu dünyadakı vəzifəsini tamamlayaraq, onu gözləyən əbədi səltənətə doğru yola çıxırdı.

Kəfənlənmiş cəsəd ehtiramla tabuta yerləşdirilir. Tabutun üzərinə isə Azərbaycanın üçrəngli bayrağı sərilir. Bu bayraq onun yaşadığı qısa, lakin mənalı həyatının, xalqına olan fədakarlığının təzahürü idi. Bu bayraq onun ömrünün şərəflə sona çatmasının bir simvolu idi.

Cənazə maşınına qoyulmuş tabut Ulacalı kəndinə doğru yola düşür. Bu yol təkcə coğrafi bir məsafə deyildi, həm də Əzizbəyin ruhunun əbədiyyətə qovuşması üçün çıxılan bir yol idi. Məsciddən çıxarkən insanların üzündə

kədərlə qarışıq qürur hissi aydın şəkildə görsənirdi Onlar bilirdilər ki, Əzizbəy ən yüksək zirvəyə - şəhadətə ucalıb.

Ulacalı kəndi sükuta bürünmüşdü. Kəndin kiçik yolları boyunca insanlar yavaş-yavaş hərəkət edir, hər kəsin üzündə dərin bir kədər eyni zamanda qürur hissi hiss olunurdu. Bugün kənd öz qəhrəmanı, Daxili İşlər Nazirliyinin Çevik Polis Alayının polis nəfəri Əzizbəy Etibar oğlu Muradovu son mənzilə yola salacaqdı.

Əzizbəyi Ulacalıya aparan maşın karvanı ora çatdıqda, kəndin küçələri insanlarla dolmuşdu. Şəhidin xatirəsi kəndin hər daşında, hər ağacında əks olunurdu. Onun doğma evinin qapısında gözləyənlər saysız şəxslər arasında sükut və dərd dolu bir hava vardı.

Tabut Çevik Polis Alayının polis nəfərlərinin çiynində şəhidin evinə gətirildi. Ailəsi və yaxınları tabutu qarşılayarkən göz yaşlarını saxlaya bilmirdi. Fatma xanım tabutun başında oturub onunla son dəfə danışırmış kimi ucadan hönkürtü ilə ağlayırdı. Onun səsi, evin divarları arasında əks-səda verirdi, sanki evin öz ruhu da bu itki ilə vidalaşırdı.

Evdəki vidalaşmadan sonra Əzizbəyin tabutu polislərin çiyninə qoyuldu. Onlar, öz yoldaşlarını son mənzilə aparmaq üçün sıraya düzüldülər. Hər bir addım, bir iz qoyurdu – bu izlər, qəhrəmanlıq, sədaqət və

məğrurluq dolu idi. Polislər, bir-birinin ardınca addımlayaraq, tabutu ehtiramla qaldırıb çiyinlərində daşıyırdılar.

Tabut yavaş-yavaş kənd qəbirstanlığına doğru hərəkət edərkən, kəndin küçələrində sükut hökm sürürdü. Hər kəs bu yürüşü izləyirdi – hər kəsin ürəyi bu qəhrəmanla dolu idi. Kəndin yaşlıları, qadınları və uşaqları, tabutun arxasınca gedərək öz qəhrəmanlarını son dəfə yola salırdılar.

Kənd qəbirstanlığına doğru gedən bu uzun yol, Əzizbəyin keçdiyi yolun son hissəsi idi. Polislər yorulmadan, səssizcə tabutu daşıyır, bu müqəddəs anı yaşayırdılar. Kəndin hər bir küncündə, hər bir daşında bu yürüşün izləri qalmışdı. Sanki kəndin öz yaddaşı da bu anı əbədiləşdirirdi. Tabutun arxasınca şəhidin atası Etibar bəy göz yaşları içində başı dik gedirdi. Onun ürəyi qəmli olsa da, oğlunun vətən üçün verdiyi fədakarlıqla qürur duyurdu.

Ulacalı kənd qəbiristanlığı böyük bir izdihamla dolmuşdu. Kənd camaatı, qəbirstanlıqda toplanaraq tabutu gözləyirdi. Onlar bu yürüşün sonunda, Əzizbəyin son mənzilə çatacağını bilirdilər. Hər kəs, bu müqəddəs anı sükutla izləyir, hər bir nəfəs, hər bir ürək bu qəhrəmanlıq anını hiss edirdi. Kənd qəbirstanlığı, sanki

bu gün üçün hazırlanmışdı, bu gün bu torpaq, bir qəhrəmanı öz qoynuna alacaqdı.

Qəbirstanlığa çatdıqda, polislər ehtiramla tabutu yerə qoyurlar. Üçrəngli Azərbaycan bayrağına bükülmüş tabutun ətrafında Əzizbəyin silahdaşları, dostları və ailəsi dayanmışdı. Bu anın müqəddəsliyi, qəbirstanlığın hər bir guşəsində hiss olunurdu. Cənazə mərasimi dərin bir kədər və qürur içində icra edilirdi. Şəhidin nəşi günorta radələrində torpağa tapşırılır və hər kəs son dəfə onunla vidalaşmaq üçün məzarın ətrafına toplaşır. Əzizbəyin nəşi torpağa qarışarkən, sanki onun ruhu bu kəndin, bu torpağın bir parçasına çevrilirdi.

Tabut torpağa tapşırıldıqdan sonra, üçrəngli bayraq, mərasimdən sonra rəsmi olaraq şəhidin atası Muradov Etibar Xanoğlan oğluna təqdim edilir. O, bu bayrağı sanki oğlu ilə son dəfə görüşürmüş kimi aldı. Bu an şəhidin ailəsi üçün həm qürur, həm də dərin kədər anı idi. Bayrağı alarkən, Etibar bəyin gözlərində yaşlar vardı, lakin o, başını dik tutur. Onun qəlbində böyük bir acı olsa da, o, bu fədakarlığın əbəs yerə olmadığını bilirdi. Əzizbəyin ruhu əbədiyyətə qovuşmuşdu, amma onun adı xalqın qəlbində əbədi yaşayacaqdı.

Etibar bəy məzarın önündə, oğlunun vətən üçün seçdiyi yoldan danışır: “Mənim oğlum Əzizbəy atasının başını ucaltdı belə şəhidlik zirvəsinə ucalmaqla. O, 44

günlük Vətən müharibəsinə könüllü olaraq getmişdi. Ordan gələndən sonra mən onu müharibə qurtarandan sonra onu saxlaya bilmədim. O, yenədə polis sıralarına getdiki mən işləyib vətənimizə xidmət eləmək istəyirəm. Asəf Zeynallının III kurs tələbəsi olanda müharibəyə gedib. Azərbaycan məni tək qoymayıb. Xalqımız məni tək qoymayıb… Sabah da yenə də əgər vətən darda olsa atası kimi iki oğlumla özüm yenə getməyə hazıram. Mən başımı dik tutub deyirəm bax bu xalqımızın yanında "Vətən sağolsun!". Allah bütün şəhidlərimizə rəhmət eləsin.” Bu sözlər Ulacalının mavi səmasında əks-səda verir.

Əzizbəyin adı, xatirəsi və cəsarəti yalnız bu kənddə deyil, bütün ölkədə əbədi olaraq yaşayacaq. Əzizbəy Muradovun həyatı və şəhadəti, Azərbaycan xalqının yaddaşında əbədi olaraq yaşayacaq. Onun fədakarlığı, cəsarəti və vətənpərvərliyi, gələcək nəsillərə ilham mənbəyi olacaq. Ulacalı kəndində onun məzarı hər zaman ziyarət ediləcək, onun adı isə qəlblərdə əbədi qalacaq.

# Şeirlər

## ƏZİZBƏY

**Ə**vvəldən taleyin yazılmış belə,
**Z**amanı çatanda yetişdi vədə.
**İ**nsançün ən uca məqama yetdin,
**Z**əfərçün canını torpağa verdin.
**B**asılmaz torpağın igid övladı,
**Ə**n uca məqamdır şəhid məqamı,
**Y**alnız qəhrəmanlar alır bu adı.

## Şəhid qardaşım

Vətən müharibəsi başlayan zaman,
Könüllü yollandın cəbhəyə o an.
Qarabağ uğrunda vuruşdun yaman,
Nə çoxmuş dərd sərin şəhid qardaşım,
Nələr yaşamısan şəhid qardaşım.

Postda dayanırdın Cıdır düzündə,
Baxırdın uzaqdan xanın kəndinə,
Sən demə var imiş həsrət içində,
Nə çoxmuş dərd sərin şəhid qardaşım,
Nələr yaşamısan şəhid qardaşım.

Azadlıq yanğısı qovurdu səni,
Azad görmək istədin Xanın kəndini,
Bu yolda qorxmadan getdin irəli,
Nə çoxmuş dərd sərin şəhid qardaşım,
Nələr yaşamısan şəhid qardaşım.

Şəhidlik necədə uca məqamdır,
Qəhraman igidlər torpaq altdadır,
Torpağı yurd edən şəhid qanıdır,
Nə çoxmuş dərd sərin şəhid qardaşım,
Nələr yaşamısan şəhid qardaşım.

Əzizbəy, şəhadət qismətin imiş,
Məkanın sən demə cənnətdə imiş,
Qarabağ savaşı taleyin imiş,
Nə çoxmuş dərd sərin şəhid qardaşım,
Nələr yaşamısan şəhid qardaşım.

## Sən

Dağlar ağ örpəyə bürünür qardaş,
Kəndiniz çəmənlə örtülür qardaş.
Ağaclar böyüyüb bar verir qardaş,
Bəs niyə gəlmirsən bu diyara sən?
Tamaşa etmirsən bu peyzaja sən?

Qarabağ qurtuldu düşmən əlindən,
Şuşa-Xankəndini azad edəndən.
Xarı-bülbül dağlarda çiçəkləyəndən,
Bəs niyə gəlmirsən bu diyara sən?
Tamaşa etmirsən bu peyzaja sən?

Hamıdan gülərüz bilmişəm səni,
Hamıdan saf qəlbli bilmişəm səni.
Hamıdan hünərli bilmişəm səni,
Bəs niyə gəlmirsən bu diyara sən?
Tamaşa etmirsən bu peyzaja sən?

## Bilmirəm dərdimi kimə söyləyim?

Bayrağa bükülmüş tabutun gəldi,
Əyildi qüssədən qəddi-qamətim.
Sinəmə dağ çəkdi hicran atəşi,
Bilmirəm dərdimi kimə söyləyim?

Min bir əziyyətlə səni böyüdən,
Ananı mən necə təskin eyləyim.
Son laylan getməyir gözüm önündən,
Bilmirəm dərdimi kimə söyləyim?

## Qəhrəman oldun

Vətənin yenilməz pəhləvan oğlu,
Vətən anan idi, sən isə oğlu.
Dözmədin işğala, ay vətən oğlu,
Döyüş meydanında qəhrəman oldun.

Kükrədin şir kimi düşmən üstünə,
Yağının canına saldın vəlvələ.
Musiqin çevrildi döyüş himninə,
Həkk oldun tarixə qəhrəman oldun.

Xudayar oxudu, sən ifa etdin,
Şuşada pianonu yoldaşın etdin.
Saysız musiqilər bizə bəxş etdin,
İfalarınla sən qəhrəman oldun.

Vətən çağıranda haraya səni,
Mərdanə şəkildə getdin irəli.
Vətən savaşından dönəndə geri,
Yaşayan əfsanə, qəhrəman oldun.

Polis sıraları olsada yerin,
Qarabağ olmuşdu sənin qəm yerin.
Yarımçıq qoyduğun işinçün getdin,
Şəhid olmağınla qəhrəman oldun.

## Necə zövq alım?

Səfalı yurdumun igid cavanı,
Sənsiz bu dünyadan necə zövq alım?
Yoxluğun sinəmə dağ çəkib axı,
İşıqlı dünyadan necə zövq alım?

Səninlə keçibdir uşaqlığımız,
Musiqi olubdu ortaq yolumuz.
Qarmonda çalardıq mahnı ikimiz,
İndi musiqidən necə zövq alım?

Sətirlər dərdimi ifadə etmir,
Həsrət yağışıyla ruhum islanır.
Surətin canlanıb qarşımda durur,
Əzizbəy, həyatdan necə zövq alım?

## Bilmirəm dərdimi kimə söyləyim?

Bayrağa bükülmüş tabutun gəldi,
Əyildi qüssədən qəddi-qamətim.
Sinəmə dağ çəkdi hicran atəşi,
Bilmirəm dərdimi kimə söyləyim?

Min bir əziyyətlə səni böyüdən,
Ananı mən necə təskin eyləyim.
Son laylan getməyir gözüm önündən,
Bilmirəm dərdimi kimə söyləyim?

## Qardaş

Dərdim ağır oldu uca dağlardan,
Yoxluğun necədə ağırmış qardaş.
Getmir ayağının izi yollardan,
Görəsən nə zaman gələrsən qardaş?

Bilmirəm dərdimi kimə söyləyim,
Gülüşün, baxışın oldu kədərim.
Dərdimi mən necə təsvir eyləyim,
Sözlər kifayətsiz qalıbdı qardaş.

Düşmən üzərində zəfər qazandıq,
Qarabağ torpağın geri qaytardıq.
Hər zaman sizinlə qürur duyardıq,
Məğrur dayansamda darıxdım qardaş.

Həmişə fəxrimiz olubsan bizim,
Məzarın olubdu mənim and yerim.
Sənsiz yaşamağa yoxdur taqətim,
Yoxluğuna alışa bilmirəm qardaş.

## Qalx ayağa qisasın al!

Vətən qədri bilənlərin,
Cəbhələrdə ölənlərin.
Ağı deyir anaları,
Yerdə qalmaz şəhid qanı.

Millətimi əzənlərin,
Soy-kökümü kəsənlərin.
Qənim kəsil cəlladlara,
Aman vermə yağılara.

Düşmənlərin başını əz,
Xainlərin əlini kəs.
Bayrağımız dalğalansın,
Zəfər səsi yankılansın.

Şəhidləri yaxşı tanı,
Onlar bizim qəhramandı.
Son vuruşa çatıb zaman,
Qalx ayağa qisasın al!

## Əzizbəyimdir

Məzarın başında dayanmışam tək,
Məzarın üstünə qoyulub çiçək.
Məzarda yatansa hamıdan yüksək,
Zirvədə dayanan Əzizbəyimdir.

Ey yolçu, bir ayaq saxla burada,
Şəhidlər can verib torpaq uğrunda.
Dön bax gör kim yatıb qara məzarda,
Uyuyan qəhrəman Əzizbəyimdir.

# Qarabağ

Qarabağ torpağı əzəldən bəri,
Olubdu türklərin ana vətəni.
Bu yurda gələndən mənfur erməni,
Od tutub alışdı, yandı Qarabağ.

İnsanlıq bu cürə vəhşət görmədi,
Onların heç kəsə rəhmi gəlmədi.
Qətliam yolundan geri dönmədi,
Cəhənnəm oduyla yandı Qarabağ.

Müzəffər ordumuz qisasın aldı,
"PUA"lar onları bir bir ovladı.
Ordumuz o yurdu bizə qaytardı,
Güllük-gülüstanlıq oldu Qarabağ.